RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 214 (9093) BAZAR, 2 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# DEDİ və ETDİ!




## ÜÇ İL ÖNCƏ "VALDAY" KONFRANSINDA "QARABAĞ AZƏRBAYCANDIR VƏ NİDA İŞARƏSİ" DEYƏN İLHAM ƏLİYEV "DƏMİR YUMRUĞ"U İLƏ ƏDALƏTİ BƏRPA ETDİ

Söz eşidilən, əməl isə gözlə görünəndir!

Biz bir işə başlamazdan əvvəl beynimizdə müəyyən planlar cızır, qərarlar qəbul edir, sonra düşüncələrimizi dilimizə gətiririk!

Aydın məsələdir ki, hər düşüncə, söz əmələ çevrilmir!

*Bəzən isə sözlə əməl arasında "böyük məsafə" olur!*

*Amma sözün də, əməlin də ləzzəti, şirinliyi ondadır ki, dediyin tez başa gələ, həm də söylədiyindən də artıq!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi!**

**Dedi və il tamam olmamış vədinə əməl etdi!**

4

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri




# Azərbaycan Avropanın etibarlı qaz təchizatçısıdır

Oktyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, digər ölkələrin dövlət və hökumət başçılarını qarşıladı.

Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun texniki göstəriciləri, layihənin əhəmiyyəti barədə videoçarx nümayiş etdirildi.

Sonra çıxışlar oldu.

2

## Sofiyada Yunanıstanın Baş naziri ilə görüş



3

## Azərbaycanla Rumıniya strateji tərəfdaşdır



3

## «Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə Çinin dəstəyini yüksək qiymətləndiririk»

Hazırda Azərbaycan ilə Çin arasında bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, nəqliyyat-logistika, sərmayə qoyuluşu, enerji, kənd təsərrüfatı və humanitar sahələrdə səmərəli əməkdaşlığımızın yeni məzmunla zənginləşməsi üçün yaxşı perspektivlər var.

3

## Qüdrətli dövlətçiliyin və inkişafın təməlinin qoyulduğu gün

1993-cü il oktyabrın 3-də keçirilmiş prezident seçkiləri Azərbaycanda yeni bir dövrün başlanğıc tarixidir. Başqa cür desək, həmin gün Azərbaycanda qüdrətli dövlətçiliyin və inkişafın təməlinin qoyulduğu gündür.

5

## Şuşada qədim memarlıq abidələrinin bərpası diqqət mərkəzindədir

Şuşa işğaldan azad olunduqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə bu şəhərə səfər etmiş və şəhərin bərpası ilə maraqlanmışlar. Dövlət başçısı bu unikal məkanın tezliklə bərpa ediləcəyini bildirmisdir.

9

## Bütün səylər regionda sülh prosesinə yönəlməlidir

Azərbaycan Vətən müharibəsində bütün dünyaya "dəmir yumruğ"unun gücünü göstərdi. Ona görə də hazırda dünyanın diqqəti ölkəmizdədir. Beynəlxalq aləm Azərbaycanı indi daha həssaslıqla öyrənməyə başlayıb. Ölkəmizin yürütdüyü inkişaf siyasətindən, əldə etdiklərindən nəticə çıxarmağa daha meyilli görünür.

6

# Suqovuşan-Tərtər yolu Qarabağın yeni yollar şəbəkəsinin müjdəçisi oldu




10

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

# Azərbaycan Avropanın etibarlı qaz təchizatçısıdır

*Əvvəli 1-ci səh.*

Layihə barədə danışan Bolqarıstanın müvəqqəti hökumətinin rəhbəri **Qılıb Donev** bildirdi ki, interkonnektorun həyata keçirilməsi tərəfdaş ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Bolqarıstan Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunu və Azərbaycandan təbii qaz təchizatının artırılması imkanlarını alqışlayır. Bu, "Repower Europe" planındakı şaxələndirmə hədəflərinə töhfə verəcək.

İnterkonnektorun Bolqarıstanda təbii qaz mənbələrinin real şaxələndirilməsini və enerji müstəqilliyini təmin edən ilk layihə olduğunu bildirən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) icraçı direktoru **Teodora Georgiyeva** dedi: "Mən həmçinin Azərbaycandan olan tərəfdaşlarımızın və dostlarımızın dəstəyinin əhəmiyyətini vurğulamaq istərdim. Bu gün onlar Prezident İlham Əliyevin rəhbərliyi ilə burada yenidən yüksək səviyyədə təmsil olunublar. Azərbaycan qazının Bolqarıstana təchizatı layihənin əsasını və onun ehtiyatının 1/3-ni təşkil edir, bu həcmin artırılması potensialı var".

Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) digər icraçı direktoru **George Satlas** da layihə barədə danışdı. Bildirdi ki, 5 il əvvəl bu layihənin reallaşmasına inananlar az olsa da, birgə səylər sayəsində o, bu gün artıq reallığa çevrilib.

Avropa Komissiyasının prezidenti **Ursula Fon der Lyayen** çıxışında dedi ki, IGB kimi layihələr qışda Avropanı qazla kifayət qədər təmin edəcək. Bu gün qaz kəmərinin işə salınması ilə Bolqarıstan və Cənub-Şərqi Avropa üçün yeni dövr başlayır.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.




## Prezident İlham Əliyevin çıxışı

- Təqdimata görə çox sağ olun.

Hörmətli Bolqarıstan Prezidenti Radev.

Hörmətli Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen.

Hörmətli prezidentlər və Baş nazirlər.

Xanımlar və cənablar.

Əvvəlcə Bolqarıstan Prezidenti Radevə bu tarixi mərasimdə iştirak etmək üçün dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacaq. Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin bir hissəsidir. Dünyada cari geosiyasi vəziyyət bunu bir daha sübuta yetirir. Təxminən iki ildir ki, Azərbaycan qazı Avropa bazarlarına çıxarılır və indi isə, o, Bolqarıstana daxil olur.

Avropanın enerji xəritəsini dəyişmiş "Cənub qaz dəhlizi" qitə üzrə ən böyük infrastruktur layihələrindən biridir. Azərbaycan "Cənub qaz dəhlizi"ni başlayan tərəf olmaqdan qürur hissi duyur. "Cənub qaz dəhlizi" qazı istehlakçılara yeni marşrutla, o cümlədən yeni mənbədən nəql edir. Bu vaxta qədər yeganə mənbə Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz yatağı olmuşdur. Lakin Azərbaycanın bir neçə digər qaz yatağında hasilat bu yaxınlarda başlayacaq və təchizat həcmlərinin artırılmasına töhfə verəcəkdir.

Uzun illər Azərbaycan beynəlxalq bazarda və ilk növbədə Avropa bazarında etibarlı neft təchizatçısı olub. İndi isə etibarlı qaz təchizatçısına çevrilir. Xanım prezidentin bərpaolunan enerji barədə dedikləri ilə bağlı bildirmək istərdim ki, bu, həmçinin bizim iyul ayında Avropa Komissiyası ilə Azərbaycan arasında imzaladığımız Enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun bir hissəsidir. Beləliklə, əminəm ki, bu yaxınlarda Azərbaycan Avropa üçün etibarlı elektrik enerjisi təchizatçısına çevriləcəkdir. Külək enerjisi sahəsində təkcə Xəzər dənizində təsdiq edilmiş potensialımızın həcmi 157 qeqavatdır. Hazırda biz avropalı tərəfdaşlarımızla bu enerjinin Avropa qitəsinə çatdırılması barədə müzakirələr aparırıq.

Ötən il qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil etmişdir. Onun 8,2 milyard kubmetri Avropaya nəql olunmuşdur. Bu isə əvvəlki illə müqayisədə 40 faiz artım deməkdir. Bu il biz ixracımızı 22 milyard kubmetrə qədər artıracağıq və onun 11,5 milyard kubmetri Avropa istehlakçılarına çatdırılacaqdır. Artıq söylədiyim kimi, bu ilin iyul ayında biz xanım prezident Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzaladıq. Bu, çox əhatəli sənəddir, ona əsasən, 2027-ci ilə qədər biz təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırırıq və bunu etməyə tam potensialımız var.

Biz TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarımızla artıq məsləhətləşmələrə başlamışıq. Çünki bu, olmadan əlavə təchizatı təmin etmək çətin olacaq.

Sonda mən Bolqarıstan, Yunanıstan xalqlarını və hamımızı bu tarixi mərasim, belə bir mühüm layihənin tamamlanması münasibətilə təbrik etmək istərdim və Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoruna uzun və uğurlu fəaliyyət arzu edirəm.

Sağ olun.




❖ ❖ ❖

Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istismara verilməsini təkcə layihədə iştirak edən tərəflər üçün deyil, həm də bütövlükdə Avropa üçün xüsusi hadisə kimi dəyərləndirən Yunanıstanın Baş naziri **Kiriakos Mitsotakis** dedi: "Prezident Əliyevin qeyd etdiyi kimi, bu kəmər vasitəsilə Azərbaycan qazı Bolqarıstana nəql olunacaq və əlbəttə ki, bu, regionda həyata keçirilən digər infrastruktur layihələri ilə birlikdə təbii qaz şəbəkəsinin inkişafına töhfə verəcək".

Rumıniyanın Baş naziri **Nikolae-Yonel Çuke** isə bildirdi ki, qaz təchizatının şaxələndirilməsi üçün bütün imkanlardan istifadə edilməlidir. Bu layihə də təchizatın yaxşılaşdırılmasına öz töhfəsini verəcək.

Serbiya Prezidenti **Aleksandar Vuçiç** çıxış edərək dedi: "Bolqarıstanlı və yunanıstanlı dostlarımızı bu interkonnektorun uğurla tamamlanması münasibətilə təbrik edirəm. Layihə Serbiya üçün də vacib əhəmiyyət kəsb edir. Deməliyəm ki, dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada, bilmirəm o, nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim".

Şimali Makedoniyanın Prezidenti **Stevo Pendarovski** də layihənin təkcə ev sahibləri üçün deyil, bütövlükdə Cənub-Şərqi Avropa üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirərək dedi: "Avropada ən çox arzuolunan şəxs - Azərbaycan Prezidenti barədə söz düşmüşkən, onun yeni nömrəsini bilmirik. Ola bilsin ki, o, telefon nömrəsini dəyişib".

Mərasimə yekun vuran Bolqarıstan Prezidenti **Rumen Radev** Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun artıq Avropanın enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdiyini vurğuladı. Prezident dedi: "Nəhayət ki, 10 ildən çox bundan əvvəl Prezident Pırvanovla əldə edilən razılaşmaya sadiq qalan Prezident Əliyevin simasında özünü etibarlı tərəfdaş kimi sübut etmiş Azərbaycandan real qaz axını var. Dünən mən çox mühüm bir təklif aldım, faktiki olaraq 4 ölkənin - Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qaz nəqli şirkətləri və təchizatçıları tərəfindən, belə demək mümkündürsə, mənə səlahiyyət verilib. Onlar məndən Avropa Komissiyasının prezidentinə birgə imzalanmış məktubu təqdim etməyi xahiş edirlər və iyulda Avropa Komissiyasının prezidenti ilə Prezident Əliyev arasında imzalanmış memorandumla paralel olaraq, Azərbaycandan nəql olunan qazın həcminin artırılmasını təklif edirlər".

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Qeyd edək ki, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) ümumi uzunluğu 182 kilometrdir, Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir.

Layihə 2011-ci ildə Bolqarıstanda qeydiyyatdan keçmiş Bolqarıstan-Yunanıstan "ICGB AD" investisiya şirkəti tərəfindən Bolqarıstanın Enerji Holdinqi və Yunanıstanın "IGI Poseidon" şirkətinin səhmdarları ilə birlikdə reallaşdırılır və hər biri 50 faiz paya malikdir.

İnterkonnektorun ümumi dəyəri 240 milyon avrodan çoxdur. Avropa Komissiyası 2010-cu ildə texniki-iqtisadi əsaslandırmalar üçün 45 milyon avro qrant yardımı və Bolqarıstanın həyata keçirdiyi proqram çərçivəsində 35 milyon avro məbləğində daha bir ödəniş ayırıb. Avropa İnvestisiya Bankı isə 110 milyon avro kredit verib.

Xatırladaq ki, IGB Azərbaycanın "Şahdəniz-2" yatağından hasil edilən təbii qazı Bolqarıstana çatdıracaq. Bu məqsədlə Bolqarıstanın "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Boru xəttinin illik ötürmə gücü 3 milyard kubmetr təşkil edəcək. Perspektivdə bu göstərici ildə 5 milyard kubmetrədək artırıla bilər. Beləliklə, Azərbaycan təbii qazı Bolqarıstanın tələbatının 25-30 faizini ödəyəcək.

Onu da qeyd edək ki, Azərbaycan qazının Avropaya nəqli 2020-ci ilin axırında "Cənub qaz dəhlizi"nin sonuncu seqmentinin - TAP-ın işə düşməsi ilə başlayıb. Hazırda Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya Azərbaycan qazının alıcılarıdır. Göründüyü kimi, yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır.

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

# Sofiyada Yunanıstanın Baş naziri ilə görüş



Oktyabrın 1-də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanın paytaxtı Sofiyada Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunulub, bu xüsusda TAP layihəsinin əhəmiyyəti vurğulanıb. Həmçinin Yunanıstan ilə Bolqarıstan arasında istifadəyə veriləcək təbii qaz interkonnektorunun əhəmiyyəti qeyd olunub.

Eyni zamanda Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun vacibliyi bildirilib.

# Azərbaycanla Rumıniya strateji tərəfdaşdır

Oktyabrın 1-də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanın paytaxtı Sofiyada Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq əsasında inkişaf etdiyini xüsusi vurğulayıb. Prezident İlham Əliyev ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin, geniş əməkdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib.

Baş nazir Nikolae-Yonel Çuke Azərbaycanla Rumıniya arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində inkişafından məmnunluğunu ifadə edib. Baş nazir müxtəlif sahələrdə geniş gündəlik əsasında əlaqələrin daha da inkişafı üçün böyük imkanların olduğunu bildirib. Eyni zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu xüsusilə qeyd edib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması və bundan irəli gələn məsələlərin icrası baxımından ölkəmizin xüsusi rolu diqqətə çatdırılıb. Eyni zamanda Azərbaycanla Rumıniya arasında kənd təsərrüfatı, neft-kimya, energetika, o cümlədən elektrik enerjisinin ixracı, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

Görüşdə həmçinin ikitərəfli gündəlikdə duran və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüş zamanı toxunulan məsələlər üzrə müzakirələrin davam etdirilməsi üçün aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verilib.

Rumıniyanın Baş naziri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət edib. Öz növbəsində Prezident İlham Əliyev Rumıniyanın Baş nazirini Azərbaycana səfərə dəvət edib.

# Sofiyada Qaz İnterkonnektorunun açılış mərasimində iştirak edən dövlət və hökumət başçıları üçün rəsmi lanç verilib



Oktyabrın 1-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin adından Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində iştirak edən dövlət və hökumət başçıları üçün rəsmi lanç verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev lançda iştirak edib.

# Səfər başa çatdı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri oktyabrın 1-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi Bolqarıstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

# «Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə Çinin dəstəyini yüksək qiymətləndiririk»

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr.

1 Oktyabr - Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram.

Son 73 ildə Çin Xalq Respublikası həyatın bütün sahələrində, istər iqtisadi, sosial, elmi-texniki, istərsə də beynəlxalq müstəvidə heyrətamiz nailiyyətlər əldə edərək öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Biz bu gün güclü iqtisadiyyata malik, beynəlxalq aləmdə fəal rolu və mövqeyi ilə fərqlənən ölkənizin Sizin liderliyiniz altında böyük uğurlara imza atmasının şahidi oluruq. Dost ölkə olaraq Azərbaycan Çinin nailiyyətlərini görməkdən sevinc hissi keçirir.

Biz tarixi ənənələrə əsaslanan Azərbaycan-Çin əlaqələrinə xüsusi əhəmiyyət veririk. Məmnunluqla qeyd etmək istəyirəm ki, diplomatik münasibətlərimizin qurulduğu otuz ildə ölkələrimiz arasında dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığımız dinamik inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə Çinin dəstəyini yüksək qiymətləndiririk. Azərbaycan da ölkənizin suverenliyini və ərazi bütövlüyünü hər zaman birmənalı şəkildə dəstəkləmişdir.

Hazırda Azərbaycan ilə Çin arasında bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, nəqliyyat-logistika, sərmayə qoyuluşu, enerji, kənd təsərrüfatı və humanitar sahələrdə səmərəli əməkdaşlığımızın yeni məzmunla zənginləşməsi üçün yaxşı perspektivlər var. Eyni zamanda biz işğaldan azad edilmiş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işlərində Çin şirkətləri ilə birgə fəaliyyətimizin genişlənməsində maraqlıyıq. İnanıram ki, müxtəlif sahələrdəki, o cümlədən təşəbbüskarı olduğunuz "Kəmər və yol" layihəsi çərçivəsində mövcud potensialdan tam şəkildə istifadə etməklə qarşılıqlı faydalı əməkdaşlığımızı daha da möhkəmləndirə və dərinləşdirə bilərik.

Bu yaxınlarda Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilmiş sammiti çərçivəsində Sizinlə keçirdiyimiz görüşü ən xoş təəssüratlarla xatırlayıram. Hesab edirəm ki, apardığımız ətraflı fikir mübadiləsi və müzakirələr qarşılıqlı etimad və dəstək üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafına yeni təkan verəcəkdir. Əminəm ki, birgə səylərimizlə Azərbaycan-Çin dostluğu və strateji tərəfdaşlığı xalqlarımızın rifahı və ölkələrimizin maraqlarına uyğun olaraq bundan sonra da genişlənməkdə və möhkəmlənməkdə davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2022-ci il*

# DEDİ və ETDİ!






## ÜÇ İL ÖNCƏ "VALDAY" KONFRANSINDA "QARABAĞ AZƏRBAYCANDIR VƏ NİDA İŞARƏSİ" DEYƏN İLHAM ƏLİYEV "DƏMİR YUMRUĞ"U İLƏ ƏDALƏTİ BƏRPA ETDİ

*Əvvəli 1-ci səh.*

Kriminal "hərbi xunta"nın korrupsiya cinayətlərini, xalqa zidd siyasətini və Ermənistanı məhvə aparan əməllərini ifşa edən sorosçu Paşinyan meydandan ölkə rəhbərliyinə gəldi!

**Siyasətdən bixəbər, dövlət idarəçiliyində naşı, diplomatiyada piyada olan Ermənistanın baş naziri Paşinyan yalan danışmaq ustası, lovğa, həm də özünü hamıdan ağıllı sayan, bütün fəaliyyətində "erməni hiyləgərliyi"nə arxalanan birisidir.**

*Özünü sələflərindən daha qətiyyətli, daha uzaqgörən, daha bacarıqlı olduğunu göstərmək üçün daim ağlına gələni edərək ağzına gələni danışırdı.*

*Gah Şuşada sərxoş vəziyyətdə yallı gedir, gah qondarma "dqr"in "parlamenti"ni Şuşaya köçürmək üçün orada yeni bina tikdirir, gah da müharibə başlayacağı təqdirdə Azərbaycandan yeni ərazilər qoparacaqları ilə hədələyirdi!*

Sonda o qədər qudurdu, ağlını itirdi ki, "Qarabağ Ermənistandır - nöqtə" deyərək sülh danışıqlarının, Azərbaycan torpaqlarının geri qaytarılması barədə otuz ildə görülən bütün işlərin, ilkin razılaşmaların üzərindən bir qara xətt çəkdi!

Bununla Azərbaycan Prezidenti İlham Əliyevin qəzəbinə də səbəb oldu!

❖ ❖ ❖

**Artıq bütün dünya bilir ki, İlham Əliyev sözü ilə əməli bir olan dövlət xadimi və sərkərdədir!**

O zaman kimsə Paşinyanın bu bəyanatının nə ilə nəticələnəcəyini bilmirdi!

Nəinki bilmirdi, heç ağlına da gətirmirdi!

Amma görünən o idi ki, artıq Ermənistan Qarabağı öz ərazisi sayır və onu geri qaytarmaq niyyətində deyil!

*O vaxtadək Ermənistanın Qarabağla bağlı belə açıq və "cəsarətli" bəyanatı olmamışdı.*

*Azərbaycan bu çılğınlığa necə cavab verəcəkdi - hamı bu barədə düşünür və hadisələrin sonrakı gedişini maraqla izləyirdi.*

❖ ❖ ❖

Dünya onu da gözəl bilir ki, İlham Əliyevin dili də var, əməli də!

"Dil" deyəndə biz Prezidentimizin sinədəftər, ağıllı, məntiqli, cəlbedici və maraqlı, eyni zamanda faktlarla zəngin nitq söyləmək məharətini nəzərdə tuturuq.

**Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən kağızsız, yazısız, heç nəyə baxmadan saatlarla çıxış edə bilir.**

**İndiyədək nitq və çıxışlarında, jurnalistlərin suallarını cavablandıranda bir dəfə də olsun faktoloji, üslub və ifadə səhvinə (Maşallah!) yol verməyib!**

**İlham Əliyev həm də yüksək diskussiya, mübahisə mədəniyyətinə malikdir!**

*Opponentinin "fakt" və arqumentlərini özünün tutarlı fakt və rəsmi mənbələrə söykənən sitatları ilə darmadağın etməyi, mövqeyini sübut və dəlillərlə əsaslandıraraq qəbul etdirməyi məharətlə bacarır.*

Biz bunu 44 günlük Vətən müharibəsi dövründə otuzdan çox dünya KİV-nin, tanınmış televiziya kanallarının və informasiya agentliklərinin müxbirlərinə verdikləri müsahibə zamanı gördük, onların qərəzli sual və yanaşmalarını necə bacarıqla, dəmir məntiq və özlərindən gətirdiyi misallarla darmadağın etdiyinin dəfələrlə şahidinə çevrildik!

Biz bunu Prezidentimizin 26 fevral 2021-ci ildə Xarici İşlər Nazirliyinin onlayn formada təşkil etdiyi və iştirakçılardan birinin qeyd etdiyi kimi, "Ginnesin rekordlar kitabına düşəcək beş saatlıq mətbuat konfransında"kı suallara verdiyi cavablarda da məmnuniyyətlə dinlədik və seyr etdik!

...Cavabın veriləcəyi şəksiz idi!

❖ ❖ ❖

**Bəli, İlham Əliyev həddini aşan, boyundan hündürə tullanmaq istəyən Paşinyana cavab verməli, necə deyərlər, ağzından vurmalı idi!**

*Əvvəla,* Paşinyan başından böyük qələt eləmişdi və onu yerində oturtmaq lazım gəlirdi.

*İkincisi,* Ermənistanın rəhbərləri heç zaman öz ağızları ilə hürməyiblər, havadarlarına, müdafiəçilərinə arxalanaraq danışıblar.

Prezident İlham Əliyev isə "Valday" və Münhen konfranslarında təkcə Paşinyana yox, onun havadarlarına da xəbərdarlıq etdi.

*Ən nəhayət,* İlham Əliyev gözəl bilirdi ki, Paşinyan əyalət səviyyəli siyasətçidir. Onu sıxan kimi daha ciddi səhvlərə yol verəcək, özünə erməni xalqı qarşısında "Qarabağı özününküləşdirən lider" imicini qazandırmaqdan ötrü yanlış, Azərbaycanın xeyrinə işləyən addımlar atacaqdır!

**Hadisələrin sonrakı gedişi də göstərdi ki, Ali Baş Komandan İlham Əliyev artıq işğal altındakı torpaqların hərbi yolla geri qaytarılması üçün hərbi hazırlıq məsələlərini tam başa çatdırıbmış!**

*Piyada erməni siyasətçisinin başına ip salıb oynadan siyasət qrossmeysteri İlham Əliyev Paşinyanı dalbadal yanlış, əslində Azərbaycana sərf edən hərəkətlərə sövq etdi, Ermənistan isə yeni müharibənin başlanmasının səbəbkarı və təhrikçisi kimi dünya ictimaiyyətinə təqdim olundu.*

❖ ❖ ❖

İlk cavab kəskin və tutarlı oldu!

**Sonrakı addımlar da göstərdi ki, Azərbaycan Prezidenti cavabın "sürətli" yox, daha əsaslı və faktlarla zəngin olmasına, üstəlik, daha böyük "auditoriya"da bütün dünyanın görəcəyi və eşidəcəyi şəkildə verilməsinə xüsusi diqqət yetirib.**

Beləliklə, 2019-cu il avqustun 5-də Ermənistanın baş naziri Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" cəfəng açıqlamasına İlham Əliyev həmin ilin oktyabrın 3-də Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik plenar iclasında cavab verdi:

*"Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" Forumu çərçivəsində müvafiq cavab verilib.*

*Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə".*

*Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".*

Ancaq zaman göstərdi ki, Azərbaycan Prezidentinin qətiyyətli mövqedən söylədiyi fikir düşmənə verilən cavabın yalnız birinci hissəsidir.

**Cənab İlham Əliyev ikinci dəfə bu mövzuya 15 fevral 2020-ci ildə Almaniyada keçirilən Beynəlxalq Münhen Təhlükəsizlik Konfransında qayıtdı.**

Həm də necə?!

*Əslində bu, iki düşmən dövlət başçısının dünyanın gözü qarşısında baş tutan söz və ağıl dueli idi!*

*Burada dilbilmə qabiliyyətindən tutmuş məntiqli mübahisə, tarixi fakt və hadisələrdən yerində, bacarıqla istifadə, opponentinin yalanını çıxarma və onu çaşdırma, gülünc vəziyyətinə salmağa qədər hər şey açıq-aşkar görünürdü.*

Cənab İlham Əliyev bu açıq qarşıdurmada keçmişə çox qısa bir ekskurs edərək Paşinyana Kürəkçay, Türkmənçay və Gülüstan müqavilələrini xatırlatdı, 1921-ci ildə Bolşevik partiyasının Qafqaz Bürosunun Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması barədə qərarından, 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdiyindən söhbət açaraq ona tarix dərsi keçdi.

Həm də beynəlxalq tədbirdə yalanlar söylədiyini ifşa etdi!

**Bu söz duelinin nəticəsində biz dövlət başçımızla sonsuz qürur duyduğumuz halda, ermənilər pərt oldular və bütün utancgətirən məqamları öz aralarında, sosial şəbəkələrdə bölüşərək açıq-açığına etiraf etdilər.**

**Əməl cavabını isə Ermənistan və onun havadarları bir qədər sonra - 27 sentyabrda başlanan və 10 noyabrda üçtərəfli Bəyanatla Azərbaycanın tam qələbəsini əks etdirən 44 günlük Vətən müharibəsinin doğurduğu real nəticələrdən aldı:**

- Ermənistan ordusu 44 günlük müharibədə məhv edildi;
- Düşmən Azərbaycan torpaqlarından birdəfəlik və it kimi qovuldu;
- Ermənistan bütün dövlət başçılarına yalvararaq onları Azərbaycan Prezidentinə minnətçi salsa da, düşmən öz qoşunlarının Qarabağdan çıxarılmasına dair qrafiki verməyənədək hərbi əməliyyatlar dayandırılmadı;
- Ermənistan Azərbaycan qarşısında diz çökərək onun bütün tələblərini yerinə yetirəcəyinə söz verərək üçtərəfli Bəyanata imza atdı;
- "Qarabağ Azərbaycandır və nida işarəsi" söyləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev əslində bu möhtəşəm qələbəsi ilə iki əsr ərzində davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoyulduğunu bəyan etdi.

*Beləliklə, "nöqtə" ilə başlayan növbəti söz davası "nida" işarəsilə - müharibə formasında davam etdi və İlham Əliyevin qətiyyət və qəhrəmanlığı, Azərbaycan Ordusunun sarsıdıcı zərbələri sayəsində tam qələbə ilə başa çatdırıldı!*

**Ermənistanın baş naziri desə də, sonradan dediyini yedi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə dedi, dediklərini Ermənistana yedirtdi və "dəmir yumruğ"u ilə Ermənistan ordusunu məhv edərək Qarabağı və Şərqi Zəngəzuru murdar ləpirlilərdən təmizlədi!**

❖ ❖ ❖

İndiyədək dünyada baş verən hadisələr göstərir ki, dövlət başçılarının, siyasətçilərin söz dueli real həyatda heç nəyi dəyişərək həll etmir!

Bu daha çox dünya ictimaiyyətinə ünvanlanan mesajlar olur.

Amma belə "əyani" görüşlər kimin kim olduğunu da ortaya qoyur.

**Həmin dövrədək Azərbaycan Prezidenti İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik etmiş, BMT-nin, Avropa Şurasının, Davos İqtisadi Forumunun islaslarında dəfələrlə yaddaqalan nitqlər söyləmiş, dünyanın ən böyük dövlətlərinin rəhbərləri ilə çoxsaylı görüşlər keçirmiş, bütövlükdə yeni dünyanın yeni liderlərindən biri kimi tanınaraq qəbul edilmişdi.**

Paşinyan isə bu sahənin ibtidai mərhələsindəydi.

Ən əsası, cənab İlham Əliyev sözü ilə əməli eyni olduğundan müstəqil Azərbaycanı qüdrətli dövlətə çevirmişdi.

*Başqa sözlə, İlham Əliyev Azərbaycanı iqtisadi gücə, yüksək siyasi nüfuza, qüdrətli orduya, müasir, çevik və hücumçu diplomatiyaya, müasir müsbət beynəlxalq imicə, ölkə daxilində isə milli birliyə malik dövlət səviyyəsinə yüksəltmişdi.*

Və hamıdan da yaxşı özü bilirdi ki, yeni müharibənin başlayacağı təqdirdə Azərbaycan Ordusu Ermənistanı qısa müddətdə məğlubiyyətə uğradaraq işğal altındakı torpaqları azad edəcəkdir!

Başqa sözlə, Azərbaycanın haqq işinin ədalətli, beynəlxalq hüququn norma və prinsiplərinə uyğunluğunu, tarixi baxımdan bütün Qarabağın və Şərqi Zəngəzurun Azərbaycana məxsusluğunu təkzibolunmaz faktlarla sübut edirdisə, sözdə dediklərini güc yolu ilə real həyatda da gerçəkləşdirməyə qadir olduğuna əmin idi.

**Müzəffər Ali Baş Komandanımız dediklərini 44 günlük Vətən müharibəsi ilə həyata keçirdi.**

**Dedi və etdi!**

**Danışdı və göstərdi!**

Azərbaycanı qalib dövlətə çevirdi, öz gücü ilə haqqı, ədaləti bərpa etdi!

**Rəhbər qətiyyəti, Sərkərdə iradəsi, diplomat məharəti, informasiya müharibəsində döyüşmək bacarığı, ən nəhayət, kişi sözü belə olur!**

❖ ❖ ❖

Əsl gülən, sonuncu gülən olur - demişlər!

İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında Paşinyanın yalanlarını ifşa edərək onu gülüş hədəfinə çevirdi.

İkinci Qarabağ müharibəsində isə bu rişxənd gülüşünü məmnun qələbə gülüşü ilə əvəz etdi!

Əvvəldə də güldü, sonda da!

*Bu gün isə hamımız Prezidentimizin həm söz duelindəki, həm də Vətən müharibəsindəki möhtəşəm qələbələrini xatırlayaraq sonsuz qürur və sevinc hissi keçiririk!*

*Əsl rəhbər, dövlət xadimi, diplomat, siyasətçi və qəhrəman Sərkərdə belə olur!*

**Bəxtiyar SADIQOV**

# Əhalini narahat edən problemlər həll edilir





Əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi məqsədilə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun Abşeron rayonunun Mehdiabad qəsəbəsində ağdamlı məcburi köçkünlərlə səyyar qəbul-görüşü keçirilib.



Səyyar görüşdə əhalini narahat edən problemlərin həlli üçün həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb. Çıxış edən rayon icra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin verdiyi tapşırıqların həyata keçirilməsi, əhalinin problemlərinin öyrənilməsi və operativ həlli üçün keçirilən bu cür görüşlərin önəmli olduğunu qeyd edərək onların davamlı olacağını bildirib. Rayon icra hakimiyyətinin başçısı Prezident İlham Əliyev tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş son qərarlardan danışaraq bütün bunların vətəndaşlara olan dövlət qayğısının göstəricisi olduğunu bildirmişdir.

Vaqif Həsənov qəbula gələn vətəndaşların qaldırdıqları məsələlərin bir hissəsini yerində həll edib, digər vacib məsələlərin həlli üçün isə müəyyən tapşırıqlar verərək həlli prosesini nəzarətə götürüb. Görüşün sonunda qəbulda iştirak edən sakinlər onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Ağsaqqallar Şurası və Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ölkəmizin ahıl vətəndaşlarını təbrik ediblər

Azərbaycan Ağsaqqallar Şurası və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı 1 Oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə ölkəmizin bütün ahıl vətəndaşlarını, o cümlədən ahıl yaşda olan ağsaqqallarımızı və müharibə, əmək, Silahlı Qüvvələr Veteranlarını təbrik ediblər. Bu barədə AZƏRTAC-a Ağsaqqallar Şurasından məlumat verilib.

Təbrikdə deyilir: "1 Oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə ölkəmizin bütün ahıl vətəndaşlarını, o cümlədən ahıl yaşda olan ağsaqqallarımızı və müharibə, əmək, Silahlı Qüvvələr Veteranlarını səmimi-qəlbdən təbrik edir, onlara uzun ömür, möhkəm can-sağlığı, xoş günlər, xalqımızın tərəqqisi naminə gərəkli və şərəfli ictimai-siyasi fəaliyyətlərində uğurlar arzulayırıq!

Hər il oktyabrın 1-i bütün dünyada olduğu kimi Azərbaycanda da Beynəlxalq Ahıllar Günü olaraq qeyd edilir. Azərbaycanın xilası naminə xalqımızın təkidli xahişi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründən başlayaraq ölkəmizdə Beynəlxalq Ahıllar Günü ilə bağlı bir çox tədbirlər, sosial proqramlar və layihələr yüksək səviyyədə həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin uğurlu sosial-iqtisadi siyasət kursunun başlıca istiqamətlərindən biri də ahılların dövlət qayğısı ilə tam əhatə olunması, onların maddi və mənəvi tələbatlarının ödənilməsi idi. Ümumbəşəri humanizm dəyərlərini özündə əks etdirən siyasi kurs Prezident İlham Əliyev tərəfindən hərtərəfli və layiqli şəkildə davam etdirilir.

Əhalinin həssas təbəqəsinə aid olan bu insanlar arasında çoxlu sayda ağsaqqallar, habelə müharibə, əmək və Silahlı Qüvvələr veteranları da mövcuddur ki, onlar da dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın doğma övlad qayğısı səviyyəsində diqqət və nəvazişini hiss edirlər. Belə ki, bütün ahıllar kimi onlara da müxtəlif növ xidmətlərin göstərilməsi, maddi-məişət şəraitlərinin daha da yaxşılaşdırılması, o cümlədən cəmiyyətə inteqrasiyaları sahəsində mütəmadi olaraq effektiv işlər görülür. Pensiya və müavinətləri müntəzəm şəkildə artırılır, onların yubileyləri qeyd edilir, ali mükafatlara layiq görülürlər, müharibə iştirakçıları minik avtomobilləri ilə təmin olunurlar və başqa bu kimi bir çox lazımlı tədbirlər həyata keçirilir. Bir sözlə, bu gün ölkəmizin ahılları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar və bu qayğı ildən-ilə daha da artır.

Hər zaman öz üzvlərini, xüsusilə də ahıl üzvlərini və bütün ahıl vətəndaşlarımızı diqqətdə saxlayan, onlara böyük qayğı, həmçinin maddi və mənəvi dəstək göstərən Azərbaycan Ağsaqqallar Şurası və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq biz bir daha bu əlamətdar tarix - 1 Oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə Azərbaycanın bütün ahıl insanlarını ürəkdən təbrik edir, onlara daha uzun və sağlam ömür, xoşbəxtlik, gələcək fəaliyyətlərində yüksək nailiyyətlər və uğurlar diləyirik".



# Heydər Əliyev ili 2023



# Qüdrətli dövlətçiliyin və inkişafın təməlinin qoyulduğu gün

**Oktyabrın 3-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycana ilk dəfə Prezident seçilməsinin 29-cu ili tamam olur. Məhz həmin tarixdən respublikamızda qüdrətli dövlətçiliyin və inkişafın təməli qoyuldu. Həmin tarixdən başlanan yeni siyasi kurs və idarəetmə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni yüksəlişinə, müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət etdi, xalqımızın müasir dövlətçilik ənənələri formalaşdı.**

## Xalqın güvəndiyi lider

Hər bir xalqın taleyində, hər bir dövlətin yüksəlişində lider amilinin böyük rol oynaması tarixi gerçəkliklərdən biridir. Tarixi təcrübə sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar onların gücü, iradəsi sayəsində öz milli haqlarına layiqincə sahib olmaq imkanı qazanırlar. Məsələyə bu prizmadan yanaşdıqda görərik ki, Azərbaycanda 1991-ci ilin payızından 1993-cü ilin ortalarına qədər baş verən bütün siyasi təbəddülatların, iqtisadi böhranın, hərc-mərcliyin, anarxiyanın, cəbhədəki uğursuzluğun əsas səbəbi ölkə rəhbərliyində olan şəxslərin siyasi qətiyyətsizliyi idi.

Xaotik proseslər və bunun fonunda hakimiyyətin öz fəaliyyətsizliyi ilə ölkəni uçuruma aparması təsdiq edirdi ki, yalnız qətiyyətli, güclü siyasi iradəsi olan rəhbər Azərbaycanı parçalanmaqdan qurtarmaq, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır bir missiyanın öhdəsindən gələ bilər. Bu lider isə xalqın məhəbbətini hələ çox-çox illər əvvəl qazanmış Ulu Öndər Heydər Əliyev idi…

Xalq, cəmiyyətin bütün zümrələri məhz Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyində təmsil olunmasını mövcud böhranlardan yeganə çıxış yolu kimi görürdü. Bu baxımdan o dövrdə görkəmli dövlət xadimini təkidlə Naxçıvandan Bakıya dəvət etməklə Azərbaycan xalqı tarixi və müdrik qərar qəbul etdi. Heydər Əliyevə ünvanlanan müraciətlər Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün zamanında atılan ümumxalq addımı idi.

## Dərin etimadın təcəssümü

1993-cü il iyun ayının 9-da Naxçıvandan Bakıya gələn, iyunun 15-də isə Ali Sovetin Sədri seçilən Heydər Əliyev siyasi müdrikliyi ilə tezliklə ölkədəki vəziyyətin nəzarət altına alınmasına nail oldu. Bununla ilk növbədə Azərbaycanın qurtuluşunun təməli qoyuldu. Xalqın Ulu Öndərin ətrafında sıx səfərbər olması Azərbaycan dövlətçiliyinin qanına susamış bütün məkrli planların üstündən birdəfəlik xətt çəkdi.

Heydər Əliyev 1993-cü il sentyabrın 29-da növbədənkənar prezident seçkiləri ərəfəsində öz proqramını belə bəyan etdi: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur".

1993-cü ildə keçirilmiş prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə gələcək yüksəlişə gedən yolun başlanğıc mərhələsi oldu. Bu seçki həm də müstəqilliyini bərpa etmiş respublikamızda keçirilən ilk demokratik seçki və xalqın sərbəst siyasi iradəsinin şəffaf və parlaq təzahürü idi.

Xalq ən doğru seçimini edərək yüksək səs çoxluğu ilə öz böyük oğlunu, dahi siyasətçi Heydər Əliyevi Prezident seçdi. Səsvermədə iştirak edən 3 milyon 966 min 327 seçicinin 3 milyon 919 min 923 nəfərinin, yaxud 98,84 faizinin seçimi Heydər Əliyev oldu. Bununla Azərbaycan xalqı görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevə dərin etimadını bütün dünyaya nümayiş etdirdi.

1993-cü ildən sonra Azərbaycanda baş verən keyfiyyət dəyişiklikləri, tənəzzülə son qoyulması, bütün sahələrdə tərəqqiyə doğru dönüşün baş verməsi, siyasi böhranlara birdəfəlik son qoyulması ilk növbədə ölkəyə qətiyyətli və müdrik liderin rəhbərlik etməsindən xəbər verirdi. Heydər Əliyev canı qədər sevdiyi Azərbaycanı qorudu, müstəqilliyimizin əbədi olmasını təmin etdi. Məhz Ulu Öndərin qətiyyəti, xalqın öz rəhbərinin ətrafında sıx səfərbər olmasının nəticəsində antiazərbaycançı şəbəkələrin planları iflasa uğradı. Məhz Ulu Öndərin sayəsində Azərbaycanın yüksəlişinin ilk qədəmlərindən olan "Əsrin müqaviləsi" imzalandı, hüquqi və demokratik dövlətçiliyin əsası qoyuldu, mütərəqqi islahatlar, ordu quruculuğu həyata keçirildi.

## Ulu Öndərin arzuları yerinə yetirildi

1993-cü il oktyabrın 3-də keçirilmiş prezident seçkiləri Azərbaycanda yeni bir dövrün başlanğıc tarixidir. Başqa cür desək, həmin gün Azərbaycanda qüdrətli dövlətçiliyin və inkişafın təməlinin qoyulduğu gündür.

Sonrakı illərin inkişaf prosesləri həmin günün tariximizdə nə qədər əlamətdar olduğunu təsdiqləyir. Xalq-Heydər Əliyev birliyinin sarsılmazlığı isə bütün mərhələlərdə yüksələn xətlə inkişaf etdi. Bu sarsılmazlıq həm də Prezident İlham Əliyevə olan yüksək xalq etimadında da özünü göstərir. Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Bütün sahələrdə qazandığımız möhtəşəm uğurlar ölkədə həyata keçirilən siyasətin dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin etdiyini göstərir.

1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimində Ulu Öndər Heydər Əliyev demişdi: "Mən bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, gənclərimiz və gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürəcəklər. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaqdır".

Ümummilli Lider Heydər Əliyevin doğma vətənimizlə bağlı arzuları artıq həyata vəsiqə alıb, yerinə yetib. Prezident İlham Əliyev Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etməklə Ulu Öndərin arzusunu çin etdi. Bu savaşda şəhidlərimizin qisası döyüş meydanında alındı, ərazi bütövlüyümüz təmin edildi. Bəli, Heydər Əliyevin qoruduğu, qurduğu Azərbaycan indi tarixinin ən qüdrətli dövlətinə çevrilib, regionda və qlobal miqyasda söz sahibi kimi çıxış edir. Ona görə Ulu Öndərin ruhu da rahatdır.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevi xalqımız hər zaman böyük ehtiramla yad edir. Gələn il isə Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Ümummilli Liderin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Xalqımız ulu öndərin 100 illik yubileyini böyük təntənə ilə qeyd edəcək. "Heydər Əliyev ili" çərçivəsində keçiriləcək bütün tədbirlər Ulu Öndərin əziz xatirəsinə ümumxalq ehtiramının növbəti təcəssümü olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan başlatdığı sülh prosesini qətiyyətlə reallaşdıracaq

## Ermənistanın təxribat cəhdləri fiaskoya uğrayacaq

**2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur olan Ermənistan Azərbaycanın tarixi qələbəsini qəbul edə bilmir, çirkin niyyətlərindən əl çəkməyərək təxribatlarına davam edir.**

İki il ərzində Azərbaycan regionda sülhün, təhlükəsizliyin yaranması üçün əlindən gələni etsə də, Ermənistan heç bir addım atmayıb. İşğalçılıq siyasətini davam etdirmək niyyətindən dönməyərək sülh prosesini gecikdirmək üçün hər vasitəyə əl atıb. Təxribatlarının cavabını layiqincə aldığı, itkilərə məruz qaldığı zaman isə havadarlarından kömək ummağa, yalvarmağa başlayıb. Reallığı qəbul etməyən Ermənistan hələ də anlamır ki, onların köməyinə gələcək kimsə yoxdur və ya sülhü təxirə salmaq cəhdləri baş tutmayacaq.

### Təxribatlar münaqişənin davam etdiyi təəssüratını yaratmaq məqsədi daşıyır

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu deyir ki, Ermənistanın hər vasitə ilə sülh sazişini imzalamaqdan yayındığı sirr deyil. Onun sözlərinə görə, Ermənistanın bunu təkbaşına etmədiyi reallıqdır, yəni ona regionda gərginlik yaratmaqda, təxribatlar törətməkdə dəstək olan dairələr mövcuddur. Başlıca məqsədləri odur ki, təxribatlar törətməklə silahlı qarşıdurmalar yaratsınlar ki, bu da münaqişənin hələ də davam etməsi təəssüratını formalaşdırsın. Bununla Ermənistan öncə artıq olmayan münaqişənin tənzimlənməsi istiqamətində müzakirələrə başlanılmasına, fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupunun yenidən aktuallaşdırılmasına nail olmaq istəyir.

"ABŞ bir müddət əvvəl Cənubi Qafqaz üzrə nümayəndəsini Minsk qrupunun həmsədri təyin etdi. Bu isə ondan xəbər verir ki, ABŞ Azərbaycanın sərgilədiyi mövqeyə etinasız yanaşır. Biz dəfələrlə bəyan etmişik ki, münaqişə Azərbaycanın gücü hesabına aradan qalxıb və mövcudluğu dövründə heç bir səmərəli nəticə ortaya qoymayan ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac yoxdur", - deyə Elşad Mirbəşiroğlu bildirir.

Onun sözlərinə görə, həm ABŞ, həm də Fransa Azərbaycanın mövqeyinin ziddinə olaraq Minsk qrupundan intensiv danışmaqdadır. Minsk qrupunun digər həmsədr ölkəsi olan Rusiyanın mövqeyi də ortadadır: Minsk qrupunun fəaliyyəti nə praktiki, nə də hüquqi cəhətdən mümkündür. Hüquqi cəhətdən ona görə mümkün deyil ki, münaqişə tarixə qovuşub, artıq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı müzakirələrdə Qarabağ müzakirə predmeti deyil. Ermənistann bu istiqamətdə heç bir təsir imkanı yoxdur.

Deputat Ermənistanın sabiq prezidenti Ter-Petrosyanın müsahibəsindəki mövqeyini xatırladaraq bildirir ki, o da artıq Azərbaycan və Türkiyə ilə münasibətləri qaydasına salmağın vacibliyini, Qarabağın müzakirə predmeti olmadığını deyib.

### Məğlub Ermənistan qalib Azərbaycanın şərtlərini qəbul etməlidir

Elşad Mirbəşiroğlunun fikrincə, təxribatların əsas səbəblərindən biri gərginlik yaratmaqla sülh prosesini əngəlləməkdir. Çünki sülh gündəliyini Azərbaycan formalaşdırır. Ermənistanın müharibədə ağır məğlubiyyətə uğraması bir faktdır. Bu reallığı kimsə dəyişə bilməz. Azərbaycan da qalib ölkə olaraq danışıqlar masası arxasına əyləşir və sülh şərtlərini müzakirə etməyə hazır olduğunu bildirir. Ermənistan isə təbii ki, özünün ağır məğlub statusuna uyğun masa arxasında əyləşmək məcburiyyətində qalır. Belə olan halda bütün proseslər Azərbaycanın haqlı maraq və mövqeyinə uyğun yekunlaşacaq.

Onun sözlərinə görə, Ermənistanın baş naziri N.Paşinyan sülh sazişini müzakirə etməkdən yayınır. Məsələnin bir tərəfi budur ki, sülh sazişi Azərbaycan üçün növbəti qələbə, Ermənistan üçün isə müvafiq olaraq növbəti kapitulyasiya sənədi olacaq. Dünya müharibələrinin təcrübəsi hər zaman məğlub tərəfin qalib tərəfin şərtlərini qəbul etməli olduğunu göstərib. Bunun başqa yolu yoxdur. Azərbaycan qalib, güclü, bütün mənalarda diktə edən tərəfdir. Ermənistan isə məğlub, zəif tərəf olmaqla, Azərbaycanın haqlı mövqeyini qəbul etmək məcburiyyətindədir. Paşinyan da Ermənistan üçün belə bir məğlubiyyət sənədinə imza atmaq istəmir, amma özü də dərk edir ki, bu sənədə imza atmaq məcburiyyətində qalacaq.

### Proseslər Azərbaycanın iradəsi altında cərəyan edəcək

Deputat deyir ki, bəzi Qərb dairələri Ermənistanı təxribatlara sövq edirlər. Məsələn, Ermənistan müdafiə naziri fransalı həmkarı ilə görüşlər keçirir, ABŞ və Fransa Ermənistana hərbi yardımdan danışırlar. Bu, Ermənistanın yenidən silahlı mübarizə aparmaq imkanının formalaşdırılmasına xidmət edir, amma unudurlar ki, regionda bundan sonrakı proseslər Azərbaycanın iradəsi altında cərəyan edəcək.

Azərbaycan iki il bundan əvvəlki ilə müqayisədə qat-qat güclüdür. Ölkəmiz Vətən müharibəsində qətiyyətli qələbə çaldı, amma ötən iki il ərzində ordusunu ən müasir tələblərə uyğun daha da gücləndirdi. Ona görə də Ermənistanın təxribatları ilk növbədə özünə ciddi zərər yetirir. Onların hər təxribatından sonra Azərbaycan mövqelərini daha da möhkəmləndirir.

Sentyabrın 12-13-də Ermənistan tərəfindən törədilmiş təxribatların qarşısı alınarkən, Azərbaycanın bir sıra strateji yüksəkliklərdə nəzarəti təmin etdiyini xatırladan deputat deyir ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, Murovdan Araz çayına qədər çox strateji, effektiv nəzarət imkanları qazanmışıq. Ona görə də Ermənistanın bütün təxribatlarının qarşısını anında almaq gücündəyik. Bütün hallarda Ermənistanın cəhdləri fiaskoya uğrayacaq, Azərbaycanın başlatmış olduğu sülh prosesi özünün məntiqi nöqtəsinə çatacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# MEDİA Agentliyinin təşkilatçılığı ilə universitetlərdə silsilə seminarların keçirilməsinə başlanılıb



**Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə gənclərin media sahəsində fəal iştirakına şərait yaratmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərinin artırılması və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün xarici mütəxəssislərin cəlb edilməsiylə silsilə seminarların keçirilməsinə başlanılıb.**

MEDİA-dan AZƏRTAC-a bildirilib ki, seminarların keçirilməsində əsas məqsəd xarici mütəxəssisləri cəlb etməklə Azərbaycan universitetlərində jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin beynəlxalq media təcrübəsinə yiyələnmələrinə dəstək olmaqdır.

Silsilə seminarlar çərçivəsində ilk olaraq Medianın İnkişafı Agentliyi və ADA Universiteti arasında bu il imzalanan əməkdaşlıq memorandumunun tərkib hissəsi kimi media sahəsində mütəxəssislərin hazırlanması məqsədilə universitetin kommunikasiya və rəqəmsal media ixtisasının tədrisində xarici mütəxəssislərin cəlb olunmasına başlanılıb. Agentliyin dəstəyi ilə cari tədris ilində universitetdə kommunikasiya, marketinq və ictimai əlaqələr üzrə müvafiq fənləri Udin və Milan universitetlərinin məzunu, kommunikasiya və marketinq, peşəkar brendin formalaşması üzrə strateji planlama istiqamətində ixtisaslaşan, Azərbaycan və Mərkəzi Asiya üzrə biznes brendləri ilə yaxından işləyən Tatyana Ravalli tədris edəcək.

Qeyd edək ki, Medianın İnkişafı Agentliyi müxtəlif universitetlərdə jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin xarici mütəxəssislərin cəlb olunduğu silsilə seminarlarda mərhələli şəkildə iştirakı istiqamətində layihənin icrasını davam etdirəcək.

# Prokurorluq orqanlarının yaradılmasının 104-cü ildönümü münasibətilə tədbir keçirilib





Milli prokurorluq orqanlarının yaradılmasının 104-cü ildönümü münasibətilə Baş Prokurorluğun rəhbərliyi oktyabrın 1-də Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, daha sonra Baş Prokurorluğun yeni inzibati binasında 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 104-cü ildönümü münasibətilə tədbir keçirilib.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Kamran Əliyev iki il bundan əvvəl işğal altında olan torpaqlarımızın Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi, rəşadətli ordumuzun igidliyi ilə düşmən işğalından azad edildiyini diqqətə çatdıraraq sentyabrın 27-də Anım Günü zamanı Azərbaycan xalqının öz qəhrəman şəhid övladlarına böyük hörmət və ehtiram bəslədiyini bütün dünyaya bir daha nümayiş etdirdiyini vurğulayıb.

Qeyd edilib ki, prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilib. Vurğulanıb ki, prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulu prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan verib. Xüsusilə qeyd edilib ki, bu gün prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına prokuror nəzarətini və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirilməklə, istintaq və dövlət ittihamının müdafiəsi sahəsindəki fəaliyyəti ilə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Baş prokuror çıxışının sonunda əminliklə bildirib ki, prokurorluq orqanlarının əməkdaşları göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, bundan sonra da öz vəzifələrinə məsuliyyətlə yanaşaraq ictimai asayişin təmin olunmasında və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə yaxından iştirak edəcək.

Daha sonra Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə ali xüsusi rütbə verilmiş bir qrup prokurorluq işçisinə rütbələrin təqdim edilməsi, xidməti fəaliyyətdə fərqlənən əməkdaşların mükafatlandırılması, prokurorluq əməkdaşları arasında keçirilmiş şahmat turniri qaliblərinin, "Prokurorluğun dostu" mükafatına layiq görülmüş media qurumları və onların nümayəndələrinin təltif olunması mərasimi keçirilib. Təltif olunmuş media qurumları arasında AZƏRTAC da var.

Sonda milli prokurorluq orqanlarının yaradılmasının 104-cü ildönümünün qeyd edilməsi ilə əlaqədar həyata keçirilmiş silsilə tədbirlərə həsr olunmuş video və prokurorluq əməkdaşlarının gündəlik həyatından bəhs edən "Valideynimin peşəsi" adlı qısametrajlı film izlənilib.

# Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb

Tbilisidə səfərdə olan Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.



Görüşdə iki ölkə arasındakı sıx əməkdaşlığın əsas prioritetləri diqqət mərkəzində olub.

Gürcüstanla Azərbaycan arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi xüsusi qeyd olunub. Bildirilib ki, ölkələrimiz arasında möhkəm strateji tərəfdaşlıq, yaxşı dialoq, dostluq və əməkdaşlıq təcrübəsi var.

Baş nazir qeyd edib ki, regional əməkdaşlığın dərinləşdirilməsi iki ölkənin ümumi maraqlarına uyğundur.

Hökumət başçısının sözlərinə görə, Gürcüstan etibarlı tərəfdaş kimi birgə layihələrin həyata keçirilməsinə və inkişafına bundan sonra da mühüm töhfə verəcək.

Söhbət zamanı regionda və dünyada təhlükəsizlik vəziyyətinə toxunulub. Münaqişənin sülh yolu ilə həllinin vacibliyi vurğulanıb.

Hökumət administrasiyasında keçirilən görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və hökumət aparatının rəhbəri Revaz Cavelidze iştirak ediblər.

***AZƏRTAC***

# Ombudsman Füzuli və Tərtərdə baş vermiş mina partlayışları ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb

Azərbaycan ombudsmanı Səbinə Əliyeva Füzuli və Tərtərdə baş vermiş mina partlayışları ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Müraciətdə deyilir: "Dəfələrlə çağırışlar edilməsinə baxmayaraq, Ermənistan tərəfindən işğal dövründə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində basdırılmış minaların dəqiq xəritələrinin hələ də ölkəmizə təhvil verilməməsi hərbi qulluqçularla bərabər, mülki şəxslərin də həyat və sağlamlığı üçün ciddi təhlükə olaraq qalmaqdadır.

Təəssüflər olsun ki, 2022-ci sentyabrın 30-da Füzuli rayonunun işğaldan azad edilmiş Yuxarı Dilağarda kəndinin minalardan təmizlənməmiş ərazisində tank əleyhinə minanın partlaması nəticəsində 1986-cı il təvəllüdlü Əsədov Amid Fətullah oğlu və 2007-ci il təvəllüdlü Quluzadə Çərkəz Bahadur oğlu həlak olub, 1973-cü il təvəllüdlü Quliyev Bahadur Məhi oğlu isə yaralanıb. Eyni zamanda 2022-ci il oktyabrın 1-ində Tərtər rayonunun işğaldan azad edilmiş ərazisində yerləşən minalardan təmizlənməmiş "Üçüncü Sovxoz" adlı yerdə piyada əleyhinə minanın partlaması nəticəsində 1990-cı il təvəllüdlü Cabbarov Nicat Novruz oğlu və 1976-cı il təvəllüdlü Bayramov Rəfail Köçəri oğlu ağır xəsarət alıb və ilkin məlumata əsasən ayaqları amputasiya edilib.

Bir daha beynəlxalq təşkilatlara müraciət edərək işarələnməmiş minaların insan həyatı üçün potensial təhlükə mənbəyi olması ilə bağlı narahatlığımızı təkrar diqqətə çatdırır və bununla əlaqədar təxirəsalınmaz addımlar atmağa çağırırıq.

Ermənistan tərəfi minaların dəqiq xəritələrini ölkəmizə təhvil verməklə beynəlxalq humanitar hüquq normalarına əməl etməli, insan hüquqlarına hörmət bəsləməli, regionda davamlı sülhün və təhlükəsizliyin təmini ilə bağlı üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir".

# Bütün səylər regionda sülh prosesinə yönəlməlidir

**Sülh, təhlükəsizlik, inkişaf, quruculuq tərəfdarı olan ölkələrin sırasının genişlənməsi bu gün dünyanın xoşbəxt gələcəyinin zəmanətidir. Azərbaycan 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsi ilə onillərin problemini həll etdi. Bu müharibə bizə, torpaqlarımızı düşməndən təmizləmək, 30 il işğalçıya sərf edən şəkildə dondurulmuş münaqişənin buzunu ətirmək, status-kvonu ortadan götürmək, yeni reallıqlar yaratmaq, haqq-ədaləti bərpa etmək, məcburi köçkünlərimizin əzəli torpaqlarımıza qayıdışına nail olmaq üçün lazım idi. Mənasız iddiaları aradan qaldırmaq, toplumları faşizm mahiyyətli ideologiyalardan çəkindirmək üçün mütləq idi. İndi haqq işinə dəstək verənlərin sayı artmalıdır. Dünyaya əsl həqiqətlər çatdırılmalıdır. Düşmənin yalanları ifşa edilməlidir.**

Son əsrlərdə yaşadıqlarımızdan bəllidir ki, haqlı olduğumuzu sübuta yetirməkdən ötrü təkcə beynəlxalq hüquq normaları kifayət etmir. Haqqın-ədalətin sənin tərəfində olması ilə iş bitmir. Onların öz yerini tutmasından ötrü həm də güclü olmalısan.Yeri gələndə vuran əlinin ağırlığını göstərməlisən. Düşmən anlamalıdır ki, məqamı çatanda zərbədən yayına bilməyəcək. Havadarlarının köməyi, kənardakı lobbi alverçilərinin dəstəvuzu onu bu şiddətdən xilas etməyəcək.

Azərbaycan Vətən müharibəsində bütün dünyaya "dəmir yumruğu"nun gücünü göstərdi. Ona görə də hazırda dünyanın diqqəti ölkəmizdədir. Beynəlxalq aləm Azərbaycanı indi daha həssaslıqla öyrənməyə başlayıb. Ölkəmizin yürütdüyü inkişaf siyasətindən, əldə etdiklərindən nəticə çıxarmağa daha meyilli görünür. Lakin düşmənlər, erməni millətçiləri yaramaz davranışları, çirkin əməlləri ilə inkişafa, daimi təhlükəsizliyə maneə yaradırlar. Məqsədli şəkildə böyük bir regionda pozucu ünsürlərə çevrilirlər. Bütün bunlar bəşəriyyətin əsrlərdir görə-görə gəldiyi acı reallıqdır.

Sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində törətdikləri genişmiqyaslı hərbi təxribatlar hər nə qədər gözlənilməz görünsə də, əslində belə bir çirkin əməllərin baş verəcəyi də istisna deyildi. Bütün bunlara düşmən tərəfinin ardıcıl xarakter daşıyan avantüralarının davamı kimi baxmaq lazım gəlir.

Digər tərəfdən, ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri və Azərbaycana münasibətdə göstərdiyi qeyri-adekvat davranışları sırf növbəti avantüra xarakteri daşıyırdı. Ermənipərəst mövqeyi ilə tanınan və erməni seçicilərinin dəstəyini qazanmaq üçün hər cür oyunları özünə rəva görən Nensi Pelosi öz siyasi ambisiyaları və lobbi maraqlarına hesablanmış fəaliyyəti ilə regionda gərginlik yaradaraq Azərbaycan ictimai rəyində onsuz da aşağı olan nüfuzunu daha da zəiflətdi. Belə səfərlər, eləcə də bəzi beynəlxalq güclərin Minsk qrupunu diriltmək cəhdləri regionda daimi, dayanıqlı sülhə deyil, ermənipərəst siyasətin bərpasına xidmət edir. Xarici siyasi rəsmilərin bununla bağlı strateji düşüncəsinin, gələcəyə aydın baxışının olmadığını ortaya qoyur. Ermənistan üzərindən regiona müdaxilə siyasəti, eləcə də Azərbaycanın tarixi qələbəsindən sonra artıq öz əhəmiyyətini itirmiş Minsk qrupunu bərpa etmək cəhdlərinin uğursuz strategiya olduğunu artıq müəyyən dövlətlərin rəsmiləri anlamalıdırlar. Regiondakı yeni tarixi reallıq fonunda Nensi Pelosi kimi qərəzli mövqeyə malik siyasilərin səfərləri Orta əsrlərin səlibçi təfəkkürünü xatırladır və özünü demokratiyanın beşiyi sayan ölkə haqqında ikrah doğurur.

Nensi Pelosi Ermənistana bu ölkənin Azərbaycana qarşı sentyabrın 12-dən 13-nə keçən gecə törətdiyi təxribatdan və Azərbaycan Ordusunun bu təxribata layiqli cavabından sonra gəldi.

## Düşmən tərəf şüurlu şəkildə danışıqlar prosesindən qaçır

Tarixi faktların təhlilini verib günümüzün reallıqlarını anlayan hər kəs fərqindədir ki, indiyə qədər heç bir dövlət müharibələrdən, münaqişələrdən xeyir tapmayıb. Bu günə qədər gəlib çatdığı inkişaf səviyyəsini isə bəşəriyyət sülhə xidmət edən, iqtisadi imkanlardan hamının faydalanması üçün geniş zəmin yaradan, investisiyalara, mütərəqqi təşəbbüslərə, dirçəlişə yol açan müdrik liderlərə borcludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hazırda beynəlxalq siyasi arenada belə bir tarixi missiyanı yerinə yetirir. Düşmən tərəfsə öz xislətinə uyğun olaraq şüurlu şəkildə danışıqlar prosesindən qaçır və regionda gərginliyin qalmasına çalışır. Bu ab-havanı saxlamaqla, Ermənistan beynəlxalq ictimai rəylə manipulyasiya edir, Azərbaycanı hədəfə gətirməyə çalışır. Əgər əvvəlki dövrdə Ermənistan Rusiyaya arxalanır və işğalçılıq siyasətini davam etdirirdisə, son hadisələr bu ölkənin oryentirlərini dəyişdiyini və açıq şəkildə Qərbdə dəstək axtardığını göstərir. Artıq NATO-nu bölgəyə gətirməyi və öz revanşist məqsədlərini bu dövlətlərin əli ilə reallaşdırmağı düşünür. Düşmən tərəfin bu manipulyasiya, təxribat və siyasi avantüralarının son məqsədi sülh prosesini ləngitmək, mümkündürsə iflasa uğratmaqdır.

Bununla da rəsmi İrəvan 2020-ci ilin 10 noyabrında Azərbaycan, Ermənistan, Rusiya dövlət başçıları arasında imzalanmış üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozmaqda davam edir. Bu ölkə silahlı birləşmələrinin Azərbaycan ərazisindən tam çıxarılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Hər fürsətdə Azərbaycan ərazilərinin minalanması işini davam etdirir. Şərti sərhədboyu bölgədə hərbiləşməni artırır və nəqliyyat kommunikasiyalarının açılmasına maneçilik törədir. Sülh prosesinə qarşı destruktiv davranışlar nümayiş etdirir, sülh müqaviləsi üzrə konkret danışıqların başlanmasına dair Azərbaycan tərəfinin təkliflərinə qarşılıq göstərmir.

Hiss olunurdu ki, Ermənistan cidd-cəhdlə revanşa, yeni hərbi əməliyyatlara, hücuma hazırlaşır. Həm Qarabağda, həm də sərhəddə təxribatların sayını artırırdı. Bu hərbi avantüranın anonsunu Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanın Vladivostok şəhərində keçirilən Şərqi İqtisadi Forumundakı çıxışı zamanı da faktiki olaraq vermişdi. Gözlənilən idi ki, Ermənistan namərd davranışlarını bu şəkildə davam etdirəcək.

Azərbaycan Ordusunun Ermənistan silahlı bölmələrinin təxribatlarına cavab olaraq, üzərinə düşən vəzifələri qısa zamanda və yüksək peşəkarlıqla yerinə yetirməsi isə göstərdi ki, müzəffər Ordumuz düşmənin istənilən məkrli niyyətinin qarşısını anındaca almağa qadirdir. Tarixdə bundan sonra "Qətiyyətli cavab" əməliyyatı kimi xatırlanacaq bu döyüşlərdə ordumuz Azərbaycanın mövqelərini hədəf götürmüş Ermənistanın hərbi nöqtələrini, şəxsi heyətlə birlikdə məhv etdi. Ölkəmizin sərhədlərinə və hərbi hissələrimizin mövqeyinə təhdid və təhlükə yarada biləcək bütün strateji məntəqələri nəzarətə götürdü.

Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda olarkən Müzəffər Ali Baş Komandan Vətən savaşında ilk azad edilən Qaraxanbəyli kəndindən bu məzmunda bir çağırış etdi: "Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır".

## Hərbi gərginlik bizim marağımızda deyil

Azərbaycan hər zaman olduğu kimi, Ermənistanın sentyabrın 12-dən 13-nə keçən gecə növbəti təxribatına qarşı da bu əməliyyatı müharibə ilə bağlı beynəlxalq qanunvericiliyə uyğun şəkildə, hamılıqla qəbul olunmuş normalara əməl edərək apardı.

Ermənistanın namərd təxribatına qarşı cavab tədbirləri yalnız legitim hədəflərə yönəldi və mülki əhali, mülki obyektlər hədəfə alınmadı. Keçirilən əməliyyat miqyasına görə kiçik, lokal mahiyyətdə oldu, əsas hədəflər əldə edildikdən sonra dayandırıldı. Halbuki Silahlı Qüvvələrimizin bundan daha çoxunu etməyə imkanı və gücü vardı. Azərbaycan Ordusu əməliyyat tapşırığını qısa müddətdə tam yerinə yetirən kimi döyüşləri dayandırdı. Bununla da bir daha nümayiş etdirdi ki, Ermənistan ərazisinə hərbi müdaxilə, burada nə isə əldə etmək məqsədi olmayıb, ordumuzun qarşısında belə bir vəzifə qoyulmayıb.

Bu gün sərhəd zonasında belə hərbi təxribatların baş verməsi, düşmənin mənfur cəhdlərinə qarşı adekvat cavab vermək zərurəti qarşısında qalması Azərbaycanın əsla marağında deyil. Ölkəmiz təxminən 30 illik münaqişəni 10 noyabr Bəyanatında Ermənistanın faktiki kapitulyasiya aktına imza atmasından sonra bitmiş sayır, bütün tərəflərin bu bəyanatla üzərlərinə götürdükləri öhdəliklərə əməl etmələrini istəyir, özü isə öhdəliklərini qısa zamanda tam şəkildə icra etməklə nümunə yaradır.

## Qətiyyətli mövqe

Vətən müharibəsindəki tarixi Zəfərimizdən, torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra qədim yurdlarımızda genişmiqyaslı quruculuq-bərpa tədbirləri həyata keçirilir. Bu işlərə külli miqdarda sərmayə qoyulub, ərazidə Azərbaycan şirkətləri ilə yanaşı, bir sıra xarici biznes qurumları da layihələr həyata keçirir. Minlərlə mülki vətəndaşımız bu yerlərdə çalışır, Qarabağın, Şərqi Zəngəzurun dirçəlişinə töhfə verir.

Bütün bunlar sülhə, əmin-amanlığa, regionun gələcəyinə inamdan irəli gəlir. Məcburi köçkünlərimizin bir qrupunun öz doğma yurdlarına qayıtması ilə bağlı ilk xoş müjdə var. Zəngilan rayonunda "ağıllı kənd" konseptində inşa edilmiş Ağalı kəndinə artıq bir qrup məcburi köçkün ailəsi köçürülüb, bu kənddə həyat başlayıb. Həmin kənd də Ermənistanın son hərbi təxribatlarının baş verdiyi bölgəyə yaxındır. Belə bir vəziyyətdə regionda hərbi gərginliyin baş verməsi əsla Azərbaycanın marağında ola bilməz. Çünki istənilən hərbi gərginlik həyata keçirilən layihələrə də, insanların həyat və sağlamlığına da böyük təhdiddir.

Azərbaycan Ordusu düşmənin təxribatlarına qarşı qətiyyətli cavabı ilə bütün bu təhdidləri anındaca dəf etmək qüdrətində olduğunu göstərdi. Hərbçilərimiz ərazidəki əsas nəqliyyat-kommunikasiya nöqtələrinə nəzarət etməkdədir. Həmin bölgədə çox mühüm yüksəkliklər də nəzarətə götürülüb.

Qeyd edək ki, Ermənistan bu ərazilərdə gücləndirilmiş bunkerlər və postlar qurmuşdu. Amma əsgər və zabitlərimiz onları qısa müddətdə neytrallaşdıra bildilər. Bu döyüşlərdə Vətən uğrunda canından keçmiş şəhidlərimizin, hazırda müalicə olunan qazilərimizin əksəriyyətinin əsasən güllə ilə yaralanması döyüşün yaxın məsafədə baş verməsinin əlamətidir. Hərbçilərimizin bu qəhrəmanlığı heç zaman unudulmayacaq, nəsillərin yaddaşında daim qürurla xatırlanacaq.

Əlbəttə, hər bir münaqişədə insan itkisi böyük faciədir, anaların göz yaşlarıdır, ailələrin, nəsillərin bir ömürlük dözülməz acılarıdır. Bu təxribatın səbəb olduğu insan faciələrinin məsuliyyəti isə rəsmi İrəvanın üzərinə düşür. Ordumuz Ermənistanın xeyli sayda hərbi texnikasını, kifayət qədər böyük vəsait hesabına başa gələn iki S-300 raketini, çoxlu sayda hərbi obyektini, onlarla postunu məhv edib. Düşmən tərəfi hərbi avantüraların, təxribatların nəticəsini görməli və bu cəhdlərə son qoymalıdır. Çünki onların bütün oxşar davranışlarının cavabı bundan sonra da çox kəskin olacaq və Ermənistan daha böyük itkilərə məruz qalacaq.

Hamıya məlumdur ki, məğlubiyyətə uğrayan qarşı tərəf regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir, açılan yeni perspektivlərə zərbə vurmağa çalışır. Dünya gücləri Ermənistanın hazırda yürütdüyü siyasətin mahiyyətini aydın görməli, əsl niyyətlərini düzgün qiymətləndirməli və onu bu iddialardan əl çəkməyə məcbur etməklə sülh prosesinə öz töhfələrini verməlidirlər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Hərb tariximizin SUQOVUŞAN Zəfəri



## İki il öncə azad edilən mühüm strateji əhəmiyyətə malik ərazimizdə indi möhtəşəm layihələr reallaşdırılır

*3 oktyabr 2020-ci il...*

*Sentyabrın 27-də başlayan Vətən müharibəsinin 7-ci günüdür...*

*"Dəmir yumruq" əməliyyatının ötən hər günündə cəbhədən xoş xəbərlər gəlir. Ordumuzun Cəbrayıl və Füzuli rayonlarının 5 kəndini və Murovdağ zirvəsini işğaldan azad etməsi hər kəsi qürurlandırır. Oktyabrın 3-də isə Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına daha bir müjdəli qələbə xəbəri verir: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"*

*İşğaldan azad olunmuş torpaqlarımızda ucalan bayrağımız düşmənin bağrına od vurur. Elə həmin gün Madagizin tarixi adı da bərpa edilir. "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!", - deyə daha bir paylaşım edən Prezident tarixi adı, ədaləti bərpa edir. İşğaldan azad edilmiş digər yaşayış məntəqələrimiz kimi, Suqovuşanın da yeni - azad, işıqlı günləri başlandı.*

### Suqovuşanın azad edilməsi müharibənin gedişatında önəmli rol oynayırdı

*Qısa arayış: Suqovuşan kəndi 1923-cü ildə Ağdərə rayonunun inzibati ərazisinə daxil edilib. 1943-cü ildə isə şəhər tipli qəsəbə statusu alıb. 1992-ci ildə Ağdərə rayonu ləğv edildiyindən onun ərazisi Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölünüb və Suqovuşan Tərtər rayonuna birləşdirilib. Qəsəbə 1992-ci ildə Azərbaycan Ordusu tərəfindən azad edilsə də, 1994-cü ildə Ermənistan silahlı bölmələri tərəfindən yenidən işğal edilib.*

Suqovuşanda düşmənin güclü istehkamları qurulmuşdu. Bu baxımdan burada müdafiə xəttini yarmaq ordumuza növbəti uğurlu əməliyyatlara yol açırdı. Prezident İlham Əliyev də Suqovuşana səfərində bu məsələyə diqqət çəkmişdi.

Dövlət başçısı qeyd etmişdi ki, Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbədə mövqelərimizin möhkəmlənməsi bizə gələcək əməliyyatlarımızda üstünlük verirdi: "Düşmən yəqin ki, və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi".

### "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunan Vətən oğulları

Təbii ki, düşmənin güclü istehkamlarının, hərbi mövqelərinin məhv edilməsi doğru manevr, hazırlıq tələb edirdi. Azərbaycan Ordusunun şücaətli oğulları isə heç nədən qorxmayaraq, "Vətən sağ olsun!" deyərək, canları, qanları bahasına olsa da, Vətənin hər qarışını düşmən tapdağından azad etməyə hazır idilər. Elə bu yolda canlarından keçib, şəhidlik zirvəsinə yüksələnlər də az olmadı. Suqovuşan qəsəbəsi və Tərtərin Talış kəndi ilə bərabər, ordumuz oktyabrın 3-də Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, eyni zamanda Füzulinin Aşağı Əbdürrəhmanlı yaşayış məntəqələrini də işğaldan azad etdi.

İkinci Qarabağ savaşından sonra Prezident İlham Əliyev müharibə iştirakçıları, o cümlədən Suqovuşan savaşçılarını mükafatlandırdı.

Bu məqsədlə "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik edilərək, Vətən müharibəsindəki qələbə ilə əlaqədar yeni orden və medallar təsis olundu. Onlardan biri də "Suqovuşanın azad olunmasına görə" medalı idi.

Prezident İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında sərəncamına uyğun olaraq, qəsəbənin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş 10647 hərbi qulluqçu bu medal ilə təltif edilib.

### Yenidənqurma və bərpa...

Ərazilərimiz işğaldan azad edildikdən sonra həmin ərazilər minalardan təmizləndikcə yenidənqurma və bərpa işlərinə başlanıldı.

Prezident İlham Əliyevin iştirakı ilə təməlqoyma tədbirləri həyata keçirildi, müxtəlif quruculuq layihələrinin icrasına start verildi. Suqovuşanda uzunluğu 28,8 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu yenidən quruldu. Suqovuşana 110/35/6 kV-luq Tərtər yarımstansiyasından 35 kV-luq yeni elektrik verilişi xətti çəkildi, hava xətləri bərpa edildi.

Eyni zamanda qəsəbə elektrik enerjisi ilə təmin olundu. Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında təmir-bərpa işləri aparıldı. Ən əsası, Tərtər və ətraf rayonların suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiyyətə malik olan Suqovuşan su anbarında təmir işlərinə başlanıldı. Ermənilərin işğalı dövründə istismara məruz qalmış su anbarının ümumi həcmi 5,86 milyon kubmetrdir. Tərtərçay üzərində yerləşən anbar Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının suvarma suyu ilə təmin edilməsində mühüm rol oynayır.

Xatırladaq ki, Suqovuşan və Sərsəng su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilib. Bu su anbarlarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən rayonlara - Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək olub. Ermənistanın işğalından sonra isə bu su anbarı ermənilərin ekoloji terroruna məruz qalırdı.

Ermənilər yay mövsümündə suyu kəsir, əhalini, kəndlilərin əkin sahələrini susuz qoyurdular. Qışda isə suyu açıb buraxaraq süni daşqın yaratmaqla, ərazilərimizi su basmasına şərait yaradırdılar.

### İşğaldan azad olunan ərazilərdə ilk idman tədbiri

Suqovuşan həm də işğaldan azad olunan ərazilərdə ilk idman tədbirinin təşkili ilə yadda qalıb. Belə ki, bu il mart ayının 20-də Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı keçirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak etdilər.

May ayında isə Suqovuşanda avarçəkmə üzrə "Prezident kuboku-2022" turnirinin açılış mərasimi oldu və yarışların birinci günü orada keçirildi. Azərbaycanla yanaşı, Türkiyə, Gürcüstan, Moldova və Özbəkistandan 100-dən artıq avarçəkənin qatıldığı turnirdə idmançılar Suqovuşan su anbarında kayak və kanoe növlərində mübarizə apardılar.

### Suqovuşanın turizm potensialı

Suqovuşan həmçinin turizm potensialı yüksək olan ərazilərimizdəndir. Elə bu baxımdan İlham Əliyev mart ayında qəsəbədə Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlini qoyub. Tədbirdə qeyd olunub ki, ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra orada abadlıq işlərinə başlanılacaq və əraziyə uyğun bitkilər əkiləcək.

Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırlarının salınması, oturacaqlar, söhbətgahların quraşdırılması, həmçinin turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyektinin yaradılması nəzərdə tutulub. Qeyd edək ki, Suqovuşan Turizm Kompleksində işlərin ilin sonunadək başa çatdırılacağı, növbəti mövsümdə turistlərə xidmət göstərəcəyi planlaşdırılır.

Məlumatlara görə, inşaat işlərinin aparılması üçün ilkin olaraq 5 hektar ərazi ayrılıb.

Dövlət Turizm Agentliyi tərəfindən isə Suqovuşan qəsəbəsinin turizm resursları əsas götürülməklə, mövcud su anbarı ətrafında infrastruktur və xidmətlərin yaradılması qərarlaşdırılıb, qəsəbənin rekreasiya imkanlarının artırılmasını və aktiv turizm fəaliyyətlərini özündə əks etdirən "Suqovuşan Turizm İnkişaf Konsepsiya" sənədi hazırlanıb. Sözügedən sənəddə Suqovuşanda əsasən qısamüddətli turist səfərlərinin ehtiyaclarını qarşılayacaq turizm xidmətlərinin, su anbarı ətrafında mövcud olan turizm resurslarından istifadə edərək infrastrukturun yaradılması təklifləri öz əksini tapır.

Bildirilib ki, Suqovuşanda turizm və ictimai-iaşə xidmətlərinin inkişafı əhalinin ehtiyaclarına uyğun xidmət sferasının yaradılması və inkişafına təkan verəcək. Bu isə öz növbəsində regionda turizmyönümlü sahibkarlıq subyektlərinin sayının artmasına, kiçik biznesin və məşğulluğun genişlənməsinə imkan yaradacaq. 2040-cı ilə qədər Tərtər rayonunun gəlirlərinin 4 faizinin turizmin gəlirləri hesabına formalaşacağı proqnoz olunur ki, bunun da əsas hissəsi Suqovuşanın payına düşür. Gəncə istiqamətindən yerli turistlərin Suqovuşana davamlı olaraq səfərləri gözlənilir. Bundan əlavə, Suqovuşan Gəncə və ətraf zonalar üçün yeni və kəşf olunmamış rekreasiya zonası kimi çıxış edəcək. Suqovuşanda turizmin inkişafının ətraf bölgələrin iqtisadi inkişafına da birbaşa müsbət təsiri olacağı proqnozlaşdırılır. Naftalandan Suqovuşana turist səfərlərinin təşkili əlavə biznes sahələrinin yaradılmasına, əhalinin turizmdən gəlir əldə etməsinə müsbət təsir göstərəcək.

Naftalan-Talış-Suqovuşan istiqamətində mövcud yol infrastrukturunun istismara verilməsinin region turizminin inkişafında mühüm rolu olacaq. Sözügedən yol infrastrukturunun Naftalan turistlərinin Suqovuşana səfərlərini optimallaşdırmaqla yanaşı, Gəncə şəhərindən qısa müddət ərzində turist marşrutlarının təşkilini mümkün edəcək. Yeni yolun istismara verilməsi Suqovuşanla yanaşı, ona yaxın olan ərazilərin inkişafına da təkan verəcək, ərazinin "əlçatan turizm destinasiyası"na çevrilməsinə imkanları artıracaq. Belə ki, respublikanın qərb istiqamətindən səfər edən yerli və xarici turistlər üçün Naftalan-Suqovuşan yolu, Bakı istiqamətindən hərəkət edən turistlər üçün Bakı-Tərtər-Suqovuşan yolu Suqovuşana əlçatanlığın təmin edilməsi üçün mühüm rol oynayır.

### Suqovuşanın hərbi əhəmiyyəti

Milli Məclisin deputatı Sahib Alıyev deyir ki, Suqovuşan İkinci Qarabağ müharibəsində ən çox şəhid verdiyimiz torpaqlarımızdandır. Bu, heç də səbəbsiz deyil: "Düşmənin ən güclü istehkamları burada idi və himayədarları onların mövqelərini ən çağdaş izləmə texnikası ilə təmin etmişdi. ATƏT-in Minsk qrupunun həmsədrlərinin ötürdüyü texnikanın da böyük hissəsi canlı qüvvə ilə yanaşı, orada cəmləşdirilmişdi".

Sahib Alıyev bildirir ki, Murovun və Suqovuşanın azad edilməsi ilə, əslində, İkinci Qarabağ savaşının taleyi həll edildi. Bu ərazilərin işğaldan azad edilməsi Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə bitəcəyinin müjdəsi idi. Düşmənin ən çox hazır şəkildə durub gözlədiyi nöqtə də bura idi, çünki 2016-cı ilin Aprel döyüşləri məhz orada baş vermişdi. Onlar bilirdilər ki, növbəti dəfə döyüşlər Suqovuşanda gedəcək.

Deputat deyir ki, düşmənin bu ərazidə yerləşən hərbi birləşmələri son dərəcə hazırlıqlı idi. Suqovuşanın azad edilməsi Azərbaycan üçün hərbi strateji baxımdan vacib idi.

Regionun turizm potensialından söz açan Sahib Alıyev deyir ki, Suqovuşan su anbarının Sərsəng qədər su ehtiyatı olmasa da, məhz buranın azad edilməsi ilə Tərtərdə və digər ərazilərimizdəki su çatışmazlığı problemi qismən də olsa həllini tapdı: "Gələcəkdə Suqovuşanda turizm obyektləri açılandan sonra hər bir azərbaycanlı ora ayaq basdıqca ilk növbədə bu torpaqların azad edilməsində canlarından keçən şəhidlərimizə rəhmət oxuyacaqlar. Əslində, əbədi yaşamaq elə adının çəkilməsi, unudulmamasıdır".

Hərbi ekspert Ədalət Verdiyev də deyir ki, Suqovuşanın azad edilməsi üçün Azərbaycan Silahlı Qüvvələri bir həftəyə qədər çox ağır əks-hücum əməliyyatlarında iştirak edib. Onun sözlərinə görə, bu ərazidəki savaş İkinci Qarabağ müharibəsində şimal-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri hesab olunur. Bu döyüşlər nəticəsində düşmənin ciddi sayda canlı qüvvə və texnika itkisinə məruz qalması onun potensialının zəifləməsinə gətirib çıxardı. Suqovuşan su anbarının nəzarətimizə keçməsi isə düşmənin enerji təchizatı sisteminə ciddi ziyan vurdu. Döyüşlər zamanı Azərbaycan Ordusu düşmənin iki tank taqımına qədər zirehli texnikasını məhv edib, bir tank taqımını isə texnikaları ilə birlikdə qənimət götürüb. Bundan əlavə, həmin ərazidə artilleriya zərbələri ilə düşmənin 10-a qədər müxtəlif texnikası məhv edilib, düşmənə aid hərbi infrastruktur Azərbaycan Ordusunun nəzarətinə keçib.

Ekspert deyir ki, Suqovuşanın azad edilməsi ən əsası onun tarixi adının bərpa edilməsi ilə nəticələndi: "Suqovuşanın azad edilməsindən sonra mülki əhalinin ən çox raket zərbələrinə məruz qaldığı Tərtər şəhəri də düşmən atəşindən qismən uzaqlaşdırılmış oldu. Başqa sözlə, Suqovuşanın azad olunması Tərtərə atılan raketlərin sayının azalmasına gətirib çıxartdı".

### Əbədiləşən Zəfərin izi

Beləliklə, sentyabrın 27-də haqq və ədalət uğrunda, ərazi bütövlüyümüzü təmin etmək istiqamətində başlayan Vətən savaşının elə ilk günündəcə 6 kənd mənfur düşməndən azad edilmişdi. Daha sonra isə növbədə düşmənin illər ərzində güclü istehkamlar qurduğu, bir gün sahiblərinin qayıdacağı, 2016-cı il Aprel döyüşlərinin xofu ilə ayağını bərk-bərk basaraq dayandığı Suqovuşan idi. Sentyabrın 27-dən oktyabrın 3-nə qədər isə başqa yaşayış məntəqəsi azad edilməmişdi, çünki düşmən mövqeləri burada möhkəm olduğu üçün yeni plana hazırlıq gedirdi. Yenə haqq yerini tapdı. Azərbaycan Ordusu düşmənin "alınmaz, dağılmaz" hesab etdiyi istehkamları darmadağın edərək irəli getdi. O gündən etibarən isə illər ərzində hər bir meşəsi, dağı, daşı belə solmuş torpaqlarımız qarış-qarış azad edildi, öz sahiblərinə qucaq açdı. Bununla da Zəfər yolumuz başladı, ta ki 8 noyabra - o alınmaz qalanın fəthinə qədər.

..İllər keçəçək, işğaldan azad olunan bütün ərazilərimizdə həyat öz axarına qayıdacaq, amma Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun Zəfər izi əbədi olaraq o torpaqlarda qalacaq.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# 2-3 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

**Oktyabrın 2-də** bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edir.

Murovdağ istiqamətində əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Saat 00:00-dan 07:00-dək düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib.

❖❖❖

Ağdərə istiqamətində qoşunlarımız Madagiz (Suqovuşan) ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır.

❖❖❖

Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edir və irəliləməyə nail olur.

❖❖❖

Əldə edilən məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxuya düşərək müxtəlif bəhanələrlə döyüşlərdən imtina edirlər.

❖❖❖



Fransa Prezidenti Emmanuel Makron növbəti dəfə Prezident İlham Əliyevə telefonla zəng edir və döyüşlərin davam etməsindən narahatlıq hissi ifadə edərək atəşkəsin bərpa edilməsini, tezliklə danışıqların aparılmasını istəyir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan isə deyir ki, sentyabrın 27-dən bu günədək Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin yaşayış məntəqələrinin ardıcıl ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxsimiz həlak olub, 60-dan çox adam yaralanıb, yüzlərlə ev dağıdılıb. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş ərazilərimizin bir hissəsini azad edib.

Ermənistanın danışıqlar prosesinin pozulması istiqamətində addımlar ataraq bu prosesə böyük zərbə vurduğunu deyən İlham Əliyev qeyd edib ki, danışıqların pozulmasına, eləcə də silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

❖❖❖

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsini raket, işğal olunmuş ərazilərimizdən isə Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsini, Ağdamın Xındırıstan, Əlibəyli, Əhmədağalı, Səfərli kəndlərini, Quzanlı yaşayış məntəqəsini, Tovuzun Ağdam kəndini, Bərdənin Soğanverdilər, Əmirli kəndlərini artilleriya atəşinə tutur.

Bəlli olur ki, Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raket "Toçka-U" taktiki raket kompleksindən buraxılıb.

❖❖❖

Düşmənin səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əski parçasının göyə sovrulması, eləcə də tanklarının, canlı qüvvə və döyüş texnikasının məhv edilməsinin videogörüntüləri yayılır.

❖❖❖



Prezident İlham Əliyev "Əl-Cəzirə" televiziya kanalına müsahibə verir. Ali Baş Komandan müharibənin hansı şərtlər əsasında dayandırıla biləcəyini açıqlayır:

"Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bugünün siyasi və geosiyasi reallıqlarına əsaslanır".

Prezident şərtlərini bir daha bildirir - Ermənistan rəhbərliyi silahlı birləşmələrinin torpaqlarımızdan çıxarılması ilə bağlı təqvim cədvəlini təqdim etməli və üzərlərinə vasitəçilər tərəfindən təsdiq olunmuş ciddi öhdəliklər götürməlidir. Bu, çox ədalətli mövqedir. Bu, müharibəyə deyil, sülhə istiqamətlənmiş mövqedir.

Ermənistanın bu şərtlərə əməl etməyəcəyi təqdirdə savaş dayanmayacaq. Azərbaycanın daha 30 il gözləməyə vaxtı yoxdur. Münaqişə indi həll olunmalıdır.

❖❖❖



Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edilir.

Gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyib yeni dayaq məntəqələrini azad etməklə tarixi ərazini düşmən qüvvələrdən təmizləyir. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilir. Sentyabrın 27-dən oktyabrın 2-si saat 20:00-dək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

* 230-dək tank və digər zirehli texnika;
* 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
* 38 ədəd hava hücumundan müdafiə vasitələri;
* 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
* 7 silah-sursat anbarı;
* 130-dan artıq avtomobil texnikası;
* 1 ədəd "S-300" zenit-raket kompleksi.

❖❖❖

**Oktyabrın 3-də** bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb və ona sarsıdıcı zərbələr endirilib.

Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri ağır artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

❖ ❖ ❖

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Silahlı Qüvvələrə Yardım Fonduna ianə edirlər.

Dövlət başçısının 2002-ci il 17 avqust tarixli 755 nömrəli fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 2020-ci il oktyabrın 1-dək 120.106.408,24 AZN, 218.680,68 ABŞ dolları, 18.341,0 avro və 5000 rubl vəsait daxil olur.

❖ ❖ ❖



Səhər döyüşləri zamanı bölmələrimiz tərəfindən düşmənin hərbi texnikasına sarsıdıcı zərbələr endirilir. Müdafiə Nazirliyi həmin anların videogürüntülərini yayır.

❖ ❖ ❖



Ali Baş Komandan tviter səhifəsində paylaşım edərək xalqa müjdəli xəbər verir:

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Bu xoş xəbərin ardınca Prezident daha bir məlumat paylaşır: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Günün sonunda Ali Baş Komandan xalqa daha bir müjdəli xəbər verir. Prezident tviter səhifəsində yazır: "Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, bu gün bütün cəbhəboyu şiddətli döyüşlər davam edib. Cəbhənin müxtəlif istiqamətlərində yaşayış məntəqələrimiz düşmənin intensiv artilleriya və raket atəşinə məruz qalıb. Azərbaycan Ordusunun bölmələrinin qətiyyətli cavab tədbirləri nəticəsində yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdə atəş mövqeləri susdurulub, düşmənə sarsıdıcı zərbə endirilib.

❖ ❖ ❖

Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb.

Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə qoşunlarımız tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## Ermənistan: məğlubiyyətin xronikası

"İravnuk" qəzeti yazır ki, Azərbaycan Ordusu addım-addım Xankəndiyə yaxınlaşır: "Xankəndini vahimə bürüyüb. Hər gün minlərlə insan buranı tərk edir. Acı həqiqət olsa da, vurğulayaq ki, 30 ildən sonra Azərbaycan Qarabağa yenidən qayıtmağa çox yaxındır. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı? Çox təəssüf ki, Ermənistan Azərbaycana qarşı müharibədə uduzur, Paşinyan isə bu məsələ ilə bağlı hansısa ciddi mövqe ortaya qoya bilmir".

"4rd.am" saytı yazır ki, əhali Xankəndidə, Şuşada təşviş içindədir. İnsanlar evlərini kütləvi şəkildə tərk edirlər: "Əhalinin əsasən üz tutduğu yer Yerevandır. Amma onların Ermənistana üz tutmasına əngəl yaradılır. Gedənlər postlarda saxlanılır. Henrix Aşotyan adlı sakinlə həmsöhbət olduq. Çox əzab, çətinlik çəkdiklərini bildirdilər. Zirzəmilərdə gizləndiklərini dedilər. Qohumunun təkidi ilə Yerevana köç etməyə hazırlaşdığını qeyd etdi. Hakimiyyətin və Qarabağ müharibəsi veteranlarının çağırışına baxmayaraq, gənclər orduya getmək istəmirlər. Onlar müxtəlif bəhanələrlə döyüşməkdən imtina edirlər. Təəssüf ki, bu gedişlə Azərbaycan əsgəri Şuşanı, Xankəndini gəlib boş görəcək".



❖❖❖

"Joxovurd" qəzeti yazır ki, xalqın sevimlisi olmaq istəyən Nikol Paşinyan da Serj Sarkisyan kimi Azərbaycan və onun rəhbərliyi qarşısında acizdir: "İlham Əliyev son bəyanatlarında Ermənistanla kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, Ermənistanın sarsıdılması prosesi Qarabağ işğaldan azad olunmayana qədər davam etdiriləcək. Amma Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. Yəqin məğlubiyyəti qəbul edib. Bu, daha təhlükəli və vahiməlidir. Hospitallar yaralılarla doludur, əsgər valideynləri çox narahatdırlar".

Qeyd olunur ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır və bu səbəbdəndir ki, Bakı konkret niyyət və məqsədlər açıqlayır. Amma nəyə görəsə, Paşinyan bu məsələdə hələ də







Azərbaycana tutarlı cavab verə bilmir və yəqin ki, verə də bilməyəcək: "Davam edən müharibədə itkilərimiz minlərlədir. Ən acınacaqlısı isə odur ki, Qarabağ tədricən boşalır".

❖❖❖

"Panarmenian.net" saytı Qarabağdan hazırladığı reportajda Vardan Qasparyan adlı ermənin açıqlamalarını diqqətə çatdırıb. Hakimiyyətə od püskürən sakin açıq şəkildə deyir ki, Paşinyan niyə Ermənistanı lazımsız müharibəyə sürükləyir: "Paşinyan, Arutyunyan, Qarabağdakı bir çox ailənin adından sizə səslənirəm. Həll edin Qarabağ məsələsini, ölümlər olmasın. Çünki Azərbaycan Ordusu faktiki olaraq Ermənistanı əzir. Amma biz buna cavab verə bilmirik".

Məqalədə Prezident İlham Əliyevin "Ermənistan Qarabağ məsələsində geri çəkilməsə, daha ağır zərbələr alacaq" fikrini diqqətə çatdıran müəllif yazır ki, Paşinyan hökuməti buna qarşı hansısa əks-həmlə edə bilmir: "Paşinyan da Sarkisyanın yolu ilə gedir. Dövləti talamaqla, müharibə aparmaqla bəlkə də cibini doldurur. Paşinyan kimi cəsarətsiz rəhbər Ermənistanın üz qarasıdır".

❖❖❖

"4rd.am" saytı Xankəndidə Arutyun Manukyan adlı müharibə iştirakçısının fikirlərini məqalə başlığına çıxarıb. "Diplomatik sferada İlham Əliyevə uduzursan, heç nə demirik. Lakin cəbhədəki məğlubiyyət bizləri ciddi qorxudur, Paşinyan. Çarəsiz qalmışıq. Əldə etdiyim məlumatlara görə, bir neçə gün çəkməz, Azərbaycan Xankəndiyə çatar. Günahsız yerə ölmək istəmirik. Fərq göz qabağındadır".

Bu arada Ermənistan tərəfində döyüşmək üçün Livandan yüzlərlə "ASALA" terrorçusunun gətirildiyi məlum olub. "Novaya qazeta"nın yazdığına görə, son günlər bu ölkədən 500-ə yaxın etnik erməni Dağlıq Qarabağdakı döyüş meydanına getmək üçün Livanı tərk edib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# 2022-ci il "Şuşa ili"dir

● Qarabağ Azərbaycandır!



# Şuşada qədim memarlıq abidələrinin bərpası diqqət mərkəzindədir

**Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş ərazilərimizdə erməni vandalizminə məruz qalmış dini, tarixi və yerli memarlıq abidəsi hesab edilən binaların bərpası və yenidən qurulmasına xüsusi önəm verirlər.**

**Qarabağda, ümumiyyətlə, işğaldan azad edilmiş bölgələrdə tikinti, quruculuq və bərpa işləri gündən-günə yeni vüsət alır. Bütün bu işlər dövlət başçısının şəxsi nəzarətində olduğundan bu yerlərə tez-tez səfər edir, görülən işlərlə yaxından tanış olur, tapşırıq və tövsiyələrini verir.**

Belə növbəti səfərlərdən biri bu il sentyabrın 27-də Vətən müharibəsinin ikinci ildönümü - Anım günü reallaşdı. Həmin gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonu və Şuşa şəhərinə səfər etdilər. Xatırladaq ki, 29 il işğal altında olan və iki il əvvəl düşməndən azad edilən Şuşa şəhəri Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri, ölkəmizin mədəniyyət beşiyi, "Qafqazın konservatoriyası" adlandırılmışdır. Şəhərin ərazisi qədim abidələrlə zəngin olmuşdur. Təəssüf ki, 1992-ci il mayın 8-də Şuşa düşmən tərəfindən işğal ediləndən sonra şəhərdə tarixi-mədəniyyət abidələri yerləyeksan edilmişdir. İşğalın davam etdiyi 29 il ərzində burada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 22 ümumtəhsil məktəbi, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey dağıdılmış, məbəd və məscidlər təhqir edilmiş, 20 kitabxana yandırılmışdır.

Şuşa işğaldan azad olunduqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə bu şəhərə səfər etmiş və şəhərin bərpası ilə maraqlanmışlar. Dövlət başçısı Şuşaya səfərləri zamanı bu unikal məkanın tezliklə bərpa ediləcəyini bildirmisdir: "Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz".

İşğal zamanı dağıdılmış və məhv edilmiş müqəddəs ünvanlardan biri də Yuxarı Gövhər ağa məscidi olmuşdur. Erməni vandalları tərəfindən məscidin interyeri məhv edilmiş, minarələrinin dekoru zədələnmiş, örtükləri dağıdılmışdır. Qəbul edilmiş layihələrə əsasən, Heydər Əliyev Fondunun rəhbərliyi və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə məsciddə ötən ilin noyabr ayından bərpa işlərinə başlanılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşada olarkən məscidi ziyarət etmiş və görülən işlərlə yaxından tanış olmuşlar.

Məsciddə birinci mərhələdə nəzərdə tutulan bərpa işləri başa çatdırılıb, ikinci mərhələdə işlər keyfiyyətlə davam etdirilir. Məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Məsciddə konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. Ermənistanın işğalı dövründə məscidə edilmiş müdaxilələr aradan qaldırılıb. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb. Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması davam etdirilir. Usta və sənətkarlar bərpa işlərini 2023-cü ilin sonunadək yekunlaşdırmağı nəzərdə tuturlar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə də tanış olublar. Xatırladaq ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir. Malikanə kompleksi, ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlanılıb. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb. Eyvanların və dirəklərin taxta konstruksiyalarının çürümüş hissələri düzəldilib. Evin çöl pilləkəni yenidən qurulub, döşəmə daşlarının dağılmış hissələri tamamlanıb. Hazırda eskiz layihələri əsasında divar və tavanlarda rəsmlərin bərpası işləri görülür. Bunlar ailə məscidinin uçmuş günbəzlərini, damını, mehrabı və "Güldəstə"sini də əhatə edir.

Bərpa işləri ilə tanışlıq zamanı Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilib. Bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyası quraşdırılacaq. 2023-cü ilin sonlarında təmir-bərpa işlərinin başa çatdırılması nəzərdə tutulan bu malikanədə ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan evin ən təmtəraqlı otağı sayılan və bir çox hallarda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq, yemək və yataq otaqlarının yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada təmir, bərpa və quruculuq işləri sırasında Şuşa şəhərində XIX əsrin sonlarında Qarabağ memarlıq məktəbinə xas olan üslubda inşa edilən binada görülən işlərlə də tanış olublar. İşğal zamanı dağıdılmış və istifadəyə yararsız hala salınmış üç yaşayış kompleksini özündə birləşdirən bu tikilidə binaların təməllərinin və divarlarının bərkidilməsi işləri aparılıb. İşğal dövründə binanın dağılmış hissəsi yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər sökülüb. Həyətdəki yarımtikilinin divarlarında bərkitmə işləri aparılıb, dəmir-beton dam quraşdırılaraq tikintisi tamamlanıb. Təmirdən sonra binadan hotel kimi istifadə ediləcəyi nəzərdə tutulub. Hotelin interyeri autentik üslubda olacaq.

Görünən odur ki, yaxın vaxtlarda Şuşanın bütün tarixi, mədəni və dini abidələri bərpa edilib öz əvvəlki görkəminə qaytarılacaq və şəhər Azərbaycanın mədəniyyət paytaxtı missiyasını uğurla yerinə yetirəcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Şuşa uğrunda döyüşənlər

# Vətən könüllüsü

**Onun doğum günü ailələrində ən xoş, ən əziz gün sayılıb. Bilal Qənbərov üç bacının bircə qardaşı, evin sonbeşiyi idi. 1993-cü il sentyabrın 29-da Bakı şəhərində dünyaya göz açan uşağa babası Bilalın adını veriblər.**



O, Səbail rayonu E.Əliyev adına 162 nömrəli tam orta məktəbdə oxuyub. Tərbiyəsi, dərsə davamiyyəti ilə həm müəllimlərinin, həm də şagird yoldaşlarının hörmətini qazanıb. 2011-ci ildə orta məktəbi bitirib.

Anası Gültəkin Qənbərova danışır ki, sanki ömrünün uzun olmayacağı ürəyinə dammışdı Bilalın: "Hər şeyə tələsirdi. Tez ailə qurdu. Sevib-seçdiyi qızla evləndi. Nazlı adını verdikləri qızı dünyaya gəldi"...

Bilal Qənbərov 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Yanvarın 5-də hərbi xidmətdən tərxis edilib.

Hərbi xidmətdə olduğu üçün iki il doğum gününü evlərində qeyd edə bilməyib. Özü də, doğmaları da növbəti il bir yerə toplaşıb bu günü hər zamankından təntənəli keçirməyi düşünüblər. Amma həmin il 2020-ci il idi. Bilal Qənbərovun doğum gününə artıq iki gün qalmışdı ki, otuz ilə yaxın düşmənin işğal altında saxladıqları ərazilərimizdə döyüşlər gedirdi...

Azərbaycanın vətənpərvər oğulları bilirdilər ki, Vətənin, xalqın ümidi onlaradır. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatı nəticəsində başlayan Vətən müharibəsində iştirak etmək, işğalçı ölkənin silahlı qüvvələrini torpaqlarımızdan qovmaq igidlərimizin Vətən qarşısında borcları idi.

Bilalgilin ailəsində gözlənilən məclis qurulmadı. Bilal Qənbərov sentyabrın 29-da, doğum günündə könüllü cəbhəyə yollandı. Doğmaları o zaman bildilər ki, o, döyüşlərdə iştirak etmək üçün könüllü yazılıbmış. Gültəkin xanım danışır: "Bir müddət əvvəl - iyul ayında da Ermənistanın təxribatı nəticəsində vəziyyət gərginləşmişdi. Oğlum o vaxt da çox istəyirmiş ki, ön cəbhəyə gedib vuruşsun".

Bilal Ağcəbədidə yerləşən N saylı hərbi hissədə təlimlərdə iştirak edib. Oktyabrın 3-də isə təlimlərdə iştirak edən əsgər yoldaşları ilə birlikdə ön cəbhəyə göndərilib. Bilal Qənbərov əvvəlcə Cəbrayıl rayonunun kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

## Nazlının qəhrəman atası

Hər döyüş qəhrəman döyüşçülərimizin zəfər salnaməsinə çevrilirdi. Ermənistan silahlı qüvvələri məğlubiyyətə uğrayaraq işğal etdikləri ərazilərimizdən geri çəkilmək məcburiyyətində qalırdılar. Ağır döyüşlərdə Bilal Qənbərov da dəfələrlə ölümlə üz-üzə gəldi. Oktyabrın 4-də Azərbaycan silahlı qüvvələrinin şücaəti nəticəsində Cəbrayıl şəhəri və rayonun bir neçə kəndi işğaldan azad edildi. Döyüşçülərimizin hədəfində digər strateji əhəmiyyətli məntəqələr, yüksəkliklər vardı. Şiddətli döyüşlər davam etdikcə, düşmən zəifləyir, texnika, silah-sursat və canlı qüvvə sarıdan böyük itkilər verməli olurdu. O qələbə soraqlı günlərdə Bilal ailəsinə hər dəfə zəng edəndə hər şeyin yaxşı olduğunu söyləyirdi: "Məndən narahat olmayın. Nazlıya yaxşı baxın, onun üçün darıxıram".

Gültəkin xanım deyir: "Oğlumun döyüş yoldaşları danışırlar ki, vəziyyət nə qədər təhlükəli olsa da, ölümün soyuq nəfəsini hiss etsək də, Bilal zarafatlarından qalmır, komandirinin, əsgər yoldaşlarının əhvalını yüksəldirdi. Bir də qızı barədə çox danışırdı".

İgid əsgər Bilal Qənbərov Füzuli iştiqamətində gedən çətin əməliyyatlarda da iştirak edib. Oktyabrın 9-da Hadrut qəsəbəsinin işğalına son qoyublar. Bilal oktyabrın 10-da doğmaları ilə telefonla danışanda onun ruh yüksəkliyi, sevinci səsindən də hiss olunub.

Oktyabrın 11-də səhər tezdən telefon danışıqlarından sonra isə ailə üzvləri Bilaldan 4 gün xəbər ala bilməyiblər. Cəbhədən şəhid tabutları gətirilirdi. Anası deyir ki, düşünürdük, yəqin Bilala da nəsə olub, oktyabrın 15-də vurduğu zəng təşvişimizə son qoydu.

## Şuşaya doğru...

Şuşa şəhərini işğaldan azad etmək artıq hər bir Azərbaycan zabitinin, əsgərinin ən böyük məqsədinə, arzusuna çevrilmişdi. Çox təhlükəli yollardan, ağır döyüşlərdən keçərək Şuşaya doğru irəliləyir, vuruşa-vuruşa kəndlərimizi azad edirdilər. Bilal Qənbərov da öndə idi.

Oktyabrın 31-də zəng edir evlərinə. Bəlkə də söyləmək istədikləri daha çox idi. Ancaq o, Şuşanı yağı düşməndən azad etmək uğrunda döyüşə tələsirdi. Bacısıgili təşvişə salmaq istəməsə də, deməliydi. Və dedi: "Bilmək olmaz, bu, son danışığımız da ola bilər. Hər şeyə hazır olun! Qızım Nazlı sizə əmanət, ondan müğayat olun!" Bir də Bilal ordumuz üçün dua istədi yaxınlarından...

Bilalın sağ-salamat qayıdacağına özlərini o qədər inandırmışdılar ki, o gün heç qorxmadılar. Noyabrın 2-də Bilal ağır döyüşdə iştirak etdi. Həmin gün döyüşdə yaralanan əsgər yoldaşlarından birini öz həyatını təhlükəyə ataraq ölümün pəncəsindən xilas etdi.

Noyabrın 3-də döyüşçü dostlarına deyib: "Ürəyimə damıb ki, bu gün şəhid olacağam". Həmin gün döyüşdə ağır yaralanıb. Qızğın döyüşlər gedirdi. Yaralıları vaxtında təxliyə etmək mümkün deyildi. Bilal Qənbərova da ilkin yardım göstərilib. Amma çox qan itirmişdi. Döyüşçülərimiz yalnız axşamüstü Bilalı və bir neçə yaralını dağdan endirə biliblər. Tibb məntəqəsinə çatdırmaq üçün kilometrlərlə yol keçiblər. Xəstəxanaya çatdırılanda vəziyyəti çox ağır idi...

Onun ən böyük arzusu Şuşaya bayraq sancmaq, evinə qalib əsgər kimi dönmək idi. Bilal Şuşanın azad olunmasını görmədi. Şuşa uğrunda döyüşdü və noyabrın 4-də şəhid oldu. Anası danışır ki, oğlumun bizə ən qiymətli yadigarı beş yaşlı qızı Nazlı, bir də dostlarının təqdim etdiyi bayraqdır. O bayraq ki üzərinə şəhidlərimizin qanları hopub. Döyüşçü dostları oğlumun son arzusunu yerinə yetiriblər, Şuşaya apardığı bayrağı gətirərək bizə - Bilalın ailəsinə təqdim etdilər".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda hərbi əməliyyatlarda qəhrəmanlıqla döyüşmüş Bilal Xanlar oğlu Qənbərov ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Unikal məkan

# Turistləri heyran edəcək qədim yurdumuz

**Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı şəkildə qurulması vacibdir. Qarabağın əsas turizm mərkəzlərindən biri də Şuşadır. Azərbaycan mədəniyyətinin incisi olan şəhərin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək.**







## *Şuşa turizm mərkəzinə çevrilməkdədir*

Şuşanın əsas gəlir mənbəyi turizmdən olurdu. Bura həm də müalicə məqsədilə gəlirdilər. Şuşanın quru və saf havası ağciyər, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsizdir. O cümlədən şəhərin mərkəzinə yaxın Turşsu istirahət və müalicə zonası Şuşaya gələnlərin sevimli yeri idi. Bu da bədxah erməniləri həmişə qıcıqlandırırdı. Çünki Dağlıq Qarabağda mənzərəli yerlər çox olsa da, Şuşa öz qədimliyi və təmiz havası ilə keçmiş SSRİ-nin əsas turizm mərkəzlərindən biri hesab olunurdu.

Şuşa qalası, Şuşa mağarası, şəhərin məhəllələri, Pənahəli xanın sarayı, Molla Pənah Vaqifin məqbərəsi, Xurşidbanu Natəvanın evi, Bülbülün, Üzeyir bəy Hacıbəylinin ev-muzeyləri, eləcə də yüzlərlə tanınmış tarixi şəxsiyyətin vaxtilə yaşadığı evlər turizm üçün ən unikal məkanlardandır. Ermənistan işğal dövründə bunları dağıdıb, talan etdi. Lakin şəhərin əvvəlki məşhurluğunu qaytara bilmək üçün hazırda dövlət bu tarixi məkanları bərpa edir. Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı və onlarca başqa məscidlər dini turizm məkanları kimi istifadə edilə bilər. İnsanlar həm ibadətə gələr, həm də əsrlər öncə inşa edilmiş məscidləri ziyarət edərlər.

## *Qala şəhərimiz gözəl istirahət mərkəzi olacaq*

Təəssüflər olsun ki, erməni işğalı altında qalan digər şəhərlərimiz kimi, Şuşa, onun təbiəti də 30 ilə yaxın işğal dönəmində erməni vandalizminin dağıdıcı təsirinə məruz qalıb. Şəhərin tarixi, mədəniyyəti, infrastrukturu ilə yanaşı, onun təbiətinin də 30 illik işğal dönəmində böyük ürəkdağlayıcı zərbələr aldığı birmənalıdır. İndi bunlar öz əvvəlki formasına gətirilir. Şuşada Turşsu yaylaqları, İsa bulağı, Topxana meşəsi, Cıdır düzü və s. yerlər turizm üçün geniş perspektivlər vəd edir. Eyni zamanda mədəniyyət paytaxtımızın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Burada istifadəyə verilən hotellərdə qonaqların qalmaları və rahat istirahət etmələri üçün bütün zəruri infrastrukturlar yaradılır. Bu cür obyektlərin fəaliyyətə başlaması şəhərin turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayacaq.

## *Quruculuq işləri sürətlə davam etdirilir*

Qısa müddət ərzində Vaqifin məqbərəsi, büstü yenidən açıldı, Üzeyir bəy Hacıbəylinin abidəsi yenidən qoyuldu, onun dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev-muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün büstləri mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı. Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı da keçirildi. Bütün bu mədəni fəaliyyətin bərpasında Heydər Əliyev Fondunun xüsusi rolu var. Qısa müddət ərzində Şuşada "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi.

İşğaldan azad olunan kimi Qarabağda dərhal bərpa və yenidənqurma işlərinin aparılmasına başlanılması onu göstərir ki, yaxın bir neçə il ərzində bu bölgədə turizm inkişaf edəcək. Ümumilikdə 2025-ci ilə qədər işğaldan azad edilmiş ərazilərə bir milyona yaxın yerli və xarici turistin səfər edəcəyi proqnozlaşdırılır.

*Elşən YƏHYAYEV*

● Xoş arzular, saf niyyətlər

# Şuşaya payız gəlir...

**Şuşaya payız gəlir. Sevgi dolu, arzu dolu bir payız. İllər idi ki, Şuşamızın yazı da, payızı da zimistana dönmüşdü. Şuşa adı çəkiləndə bağrımızın başı od tutub yanırdı. 2020-ci ilin sentyabrında Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə zəfər yürüşünə çıxdı. Oğullarımız dağlardan, qayalardan keçərək zirvələrə doğru yol aldılar. Şuşanı azad edib 28 illik həsrətdən sonra bizləri arzularımızın, xəyallarımızın şəhərinə qovuşdurdular.**



İki ildir ki, Şuşaya bahar gözlü payız gəlir, gülə-gülə, fərəhlə, qürurla... Bu cənnət şəhərin daşı da, qayası da, uçulub viran qalmış evləri də, küçələri də abadlaşmağa, gözəlləşməyə başladı, ruhu təmizləndi... Məscidlərimizdən yenidən azan səsləri gəldi. Dini ocaqlarımız yenidən bərpa edildi. Şuşa mədəniyyət paytaxtımız elan olundu. İlk səfəri zamanı Prezident, Müzəffər Ali Baş Komandan Şuşaya özü ilə Azərbaycan və dünya mədəniyyətinə əvəzsiz töhfələr vermiş dahi insanların heykəllərini apardı. Şuşada ilk olaraq söz adamının, şair Molla Pənah Vaqifin dağıdılmış məqbərəsi bərpa edildi.

Şuşa bu gün beynəlxalq tədbirlərin, böyük musiqi festivallarının, elmi konfransların ən çox keçirildiyi məkandır. Bura təkcə mədəniyyətimizin, musiqimizin paytaxtı deyil, həm də cəsurluğun, qorxmazlığın, vətən sevgisinin, yurda, torpağa məhəbbətin əsl ünvanıdır.

Qələbəmizin ikinci ilinin payızı Şuşaya xoş növraq, gözəl gün, abadlıq, xoş arzu və saf niyyətlərlə gəlir. Hər yer gözəlləşir, abadlaşır. Şuşa bu payız daha da qürurludur. Möhtəşəm qələbəmiz dünyanın siyasi masalarında tarixin gerçəkliyi kimi qəbul olunur. Azərbaycan əsgərinin sinəsində daşıyıb Şuşada qaldırdığı müzəffər bayrağımız bu payız daha qürurla dalğalanır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İqtisadiyyatımız Vətən müharibəsi günlərində



# Suqovuşan-Tərtər yolu Qarabağın yeni yollar şəbəkəsinin müjdəçisi oldu




**...Müzəffər Azərbaycan Ordusu şərəfli missiyasının öhdəsindən layiqincə gələrək işğal altında olan şəhərlərimizi və kəndlərimizi bir-birinin ardınca yağı tapdağından azad edirdi. İndi bu yerlərdə erməni faşizminin təzahürləri əyani görünürdü. Erməni vandalları yaşayış məntəqələrimizdəki binaları uçurmuş, mədəni və tarixi abidələrimizi, məscidlərimizi, əcdadlarımızın, əzizlərimizin qəbirlərini dağıtmışdılar. Təbii resurslarımızı daşıyıb aparmış, oğurluq, talançılıq etmişdilər. Düşmənin bərbad hala saldığı infrastrukturlardan biri də Suqovuşan-Tərtər avtomobil yolu idi.**

Bu yolun bərpasına hələ müharibənin başlanmasından bir həftə keçməmiş start verildi. Bəli, qələbəyə inamımız belə böyük idi! Prezident, Ali Baş Komandan İlham Əliyev qətiyyətlə deyirdi: "Tezliklə o yerlərə qayıdacağıq, bütün kəndləri yenidən quracağıq". Elə bu inam və qətiyyətlə də dövlət başçısı hələ döyüşlərin davam etdiyi günlərdə artıq işğaldan qurtulmuş yerlərdə bərpa və quruculuğa start verdi. Prezidentin tapşırığına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən oktyabrın 3-də Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının asfaltlanması işlərinə başlandı.

Bu, ümumi uzunluğu 29 kilometr olan avtomobil yolları ikinci texniki dərəcəyə uyğun olaraq bərpa edilirdi. İki geniş hərəkət zolağından ibarət olan yolun asfalt-beton örtüyünün eni 9 metr idi. Yollar uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdı.

İşlərin gedişində AAYDA xəbər verirdi ki, tikinti zamanı yollar boyu yararsız qrunt qazılaraq çıxarılıb, yararlı qruntla əks-dolğu işləri aparılıb, torpaq yatağı genişləndirilərək profilə salınıb və yeni yol əsası inşa edilib: "Tikinti işləri inşaat norma və qaydalarının tələblərinə əsasən və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında aparılır. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib. Artıq yolun Tərtər şəhərindən Suqovuşan kəndinə qədər olan 21 kilometr, həmçinin Suqovuşandan Talış kəndinə doğru uzanan 8 kilometrlik hissələri üzrə yeni yol yatağının və yol əsasının inşası işləri başa çatdığı üçün növbəti mərhələ üzrə asfaltlanma işlərinə başlanılıb. Yeni asfalt-beton örtüyünün döşənəcəyi sahə 250 min kvadratmetrdən çoxdur".

Xatırladaq ki, Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilib. 2020-ci ilin payızında işğaldan azad edilmiş yaşayış məntəqələrinə qədər uzanan sözügedən tarixi yolun bərpası istiqamətində geniş miqyaslı tikinti işləri görüldü. Ərazi minalardan təmizləndikdən sonra yolun təmir-bərpası qısa müddətdə ikinc texniki dərəcəyə uyğun yenidən qurularaq istismara verildi.

Növbəti mərhələdə Çaylı kəndindən Talış kəndinə qədər uzunluğu 8 kilometr olan yolun, həmçinin Talış kəndindən Tapqaraqoyunlu kəndini keçməklə Qaşaltı Qaraqoyunlu kəndinə doğru 22 kilometr uzunluğa malik yeni yolun inşası da planlaşdırılırdı. Sözügedən avtomobil yollarının birləşdirilməsi ilə Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət nəzərdə tutulurdu.

2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyev Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını etdi. Qeyd olundu ki, yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilib. Yolboyu layihə üzrə avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb.

Həmin vaxt Suqovuşan-Xan arxının 37 kilometrlik betonlama işinin layihəsi də artıq hazırlanmışdı. Suqovuşanın işğaldan azad olunması ilə Bərdə, Goranboy, Naftalan, Yevlax, Ağcabədi rayonları daxil olmaqla təxminən 30 min hektara yaxın əraziyə ilk dəfə su verilmişdi. Bu da fermerlərə növbəli əkini təmin etməyə imkan yaratmışdı. Fermerlər artıq iki mərhələdə işləmək imkanı əldə etmişdilər.

Elə həmin gün Prezidentimiz Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoydu.

Suqovuşan-Tərtər yolunun bərpası işğaldan azad edilən ərazilərimizə doğru uzanan yeni yollar şəbəkəsinin müjdəçisi oldu. "Bütün yollar Qarabağa aparır..." artıq nikbin və inamlı bir devizə çevrilmişdi!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Transformasiya Proqramı ilə bağlı məlumat və təlim sessiyası keçirilib

**"Azərbaycan Dəmir Yolları" QSC-də Transformasiya Proqramının icrası üzrə Koordinasiya Ofisinin komandası ilə məlumat və təlim sessiyası keçirilib.**

QSC-dən bildirilib ki, sessiyada ilk çıxış edən "Azərbaycan Dəmir Yolları" QSC-nin Maliyyə və İqtisadiyyat İdarəsinin Texniki və iqtisadi göstəricilərin normallaşması şöbəsinin rəisi Nigar Qafarlı yeni əməliyyatların idarəetmə sisteminin üstünlükləri və əlavə kapital cəlb edilmədən əldə olunan nəticələr, tranzit rejimi üzrə yükdaşımaların həcminin artırılması istiqamətində aparılan işlərlə bağlı ətraflı məlumat təqdim edib.

Qeyd olunub ki, tranzit həcmini artırmaq üçün əsas dəhlizlər üzrə tranzit tələbatı həcmi müəyyən edilib və modelləşdirmə üsulu ilə qiymətləndirmələr aparılıb. Buna əlavə olaraq, əsas tranzit dəhlizləri üzrə maksimal ötürmə qabiliyyəti haqqında məlumatlar toplanaraq marşrutlar üzrə mövcud maneələrə baxılıb. Narazı yükgöndərənlərlə görüşlər keçirilib.

Həmçinin bildirilib ki, hazırda "Gürcüstan Dəmir Yolları" ilə, xüsusilə də Poti, Batumi və Axalkalaki stansiyaları, terminallar, həmçinin əməliyyatların idarəetmə sistemləri (ƏİS) və ortamüddətli planlanma bloku ilə aktiv şəkildə kommunikasiya aparılır. Batumi istiqamətindəki platformaların Gürcüstan ərazisində yubanması aradan qaldırılıb. Eyni zamanda "Qazaxıstan Dəmir Yolları"nın da bu işə cəlb edilməsi və düzgün kommunikasiyanın qurulması üçün danışıqlar aparılır.

Strateji və korporativ inkişaf idarəsinin rəisi Azad Hüseynov sözügedən məsələ ilə bağlı qeyd edib ki, uzunmüddətli tranzit tələbi modelinin aralıq nəticələri, ssenariləri, daşımanın dəyəri və vaxtı nəzərə alınmaqla təhlillər hazırlanıb, həmçinin həcm və EBİTDA göstəricilərinə əsaslanan uzunmüddətli tranzit tələbi ssenariləri formalaşdırılıb. Bundan əlavə konteynerli və konteynersiz yüklər üçün tranzit məhsulunun inkişafına dair tələblər işlənib hazırlanaraq model formalaşdırılıb. İştirakçılara pilot layihə, onun rolu, əhəmiyyəti və gözlənilən nəticələr barədə məlumatlar da çatdırılıb.

QSC-nin Yükdaşımalar departamentinin baş mühəndisi İlqar Mustafayev təlim iştirakçılarına konteyner blok qatarlarının daha səmərəli hərəkəti məqsədilə həyata keçirilən pilot layihənin ilkin nəticələri ilə bağlı məlumat verib. Belə ki, Azərbaycan dəmiryolçularının konteyner blok qatarlarının hərəkətinə dair gürcüstanlı həmkarları ilə daha operativ koordinasiyası sayəsində əvvəllər ortaya çıxan bir sıra problemlər artıq öz həllini tapıb. Pilot qatarın işə düşməsindən sonra platformaların dövriyyə müddəti 57 faiz azalıb.

Yeni sistem istifadəyə verildikdən sonra Ələtdə fitinq platformaların dövriyyə müddəti 25 faiz azalaraq 3 günə çatıb. Bu göstəricini gələcəkdə 3 gündən də az vaxta endirmək əsas məqsədlərdəndir.

Konsultant Dmitri Mokrıy da həmçinin təlim iştirakçılarına pilot layihə barədə ətraflı məlumat verib. Sonda isə əməkdaşların sualları və layihə ilə bağlı təkliflər dinlənilib.

# Azərbaycanın dünyada təbliğinə töhfə

**Heydər Əliyev Fondu və bp şirkəti Azərbaycanın qədim və zəngin tarixini və mədəniyyətini təbliğ edən yeni bir filmi ictimaiyyətə təqdim ediblər. Heydər Əliyev Fondu və bp-nin birgə dəstəyi ilə ərsəyə gəlmiş "Dünya xəzinələri - Azərbaycan" adlı filmin premyerası Heydər Əliyev Mərkəzində təxminən 1000 nəfərlik auditoriyanın iştirakı ilə baş tutub.**

Film Bakı, Şuşa, Qobustan və Şəkinin ecazkar və əsrarəngiz tarixi və mədəni irs xəzinələrini təqdim edir və Azərbaycanın misilsiz mədəni irsinin beynəlxalq miqyasda təbliğinə növbəti bir töhfədir.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "Bu, çox sayda insanın dəstəyi ilə ərsəyə gəlmiş möhtəşəm bir filmdir. Azərbaycanın mədəni irsinin dünya ictimaiyyətinə mükəmməl şəkildə təqdim edilməsində əməyi olan bütün insanlara minnətdarlığımızı bildiririk. Azərbaycandakı fəaliyyətimizin 30-cu ildönümündə hökumət, SOCAR və tərəfdaşlarımızla birlikdə əldə etdiyimiz möhtəşəm nailiyyətlərə bir daha nəzər saldığımiz bir vaxtda Azərbaycanın beynəlxalq miqyasda təbliğinə bu böyük töhfəni verə biləcəyimizdən qürur və şərəf duyuruq. Ümid edirik ki, milyonlarla insan Azərbaycanı dünyanın mədəniyyət xəzinəsinin bir incisi kimi təqdim edən bu filmdən böyük zövq alacaq".

Filmin müəllifi tarixçi, yazıçı, aparıcı və möhtəşəm "Dünya xəzinələri" sənədli filmlər silsiləsinin ssenari müəllifi və təqdimatçısı professor Bettani Hyuzdur. Professor Hyuz ölkəmizin tarixini və mədəniyyətini araşdırmaq və özünün əsrarəngiz filmlərindən birini Azərbaycanın möcüzəvi mədəniyyət xəzinəsinə həsr etmək üçün iyun ayında Azərbaycana səfər etmiş və çəkilişlər aparmışdı.

Film artıq BBC telekanalı vasitəsilə "İpək yolu" və "Odlar yurdu" adlanan iki hissədə beynəlxalq ictimaiyyətə çatdırılıb. Azərbaycan auditoriyası üçün bp və Heydər Əliyev Fondu filmin Azərbaycan və ingilis dillərində 60 dəqiqəlik tam versiyasını hazırlayıb və onu ictimai yayım üçün yerli telekanallara təqdim etməyi planlaşdırır.

Heydər Əliyev Fondu və bp-nin tərəfdaşlığı ilə hazırlanan film Böyük Britaniyanın "Sandstone Global Productions" şirkəti tərəfindən Bakı Media Mərkəzinin dəstəyi ilə ərsəyə gəlib.

Layihənin ümumi dəyəri 300 min funt sterlinqdir.

# Neftçalada pambıq sahələrinə 31 kombayn çıxarılıb

**Cari il Neftçala rayonunda 8645 hektar sahədə pambıq becərilib. Pambıq sahələrinə lazımi aqrotexniki qulluq göstərilib, mineral gübrələr verilib, təbii proseslərə görə əkin sahələrinin suvarılmasında suyun şor olmasına baxmayaraq, vaxtında suvarma suyu ilə təminat həyata keçirilib. Göstərilən aqrotexniki qulluq nəticəsində pambıq tarlalarında bol məhsul yetişdirilib.**

AZƏRTAC xəbər verir ki, Neftçalada tarla görüşü təşkil olunub. Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Neftçala Suvarma Sistemləri İdarəsinin, "P-Aqro" MMC-nin məsul şəxsləri və fermerlərin iştirakı ilə pambıq sahələrinə baxış keçirilib, yığım prosesi izlənilib. Görüş zamanı fermerləri maraqlandıran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilib.

Pambıq yığımına nəzarətin gücləndirilməsi, gündəlik mövcud qrafiklərin hazırlanması, suvarma zamanı sudan səmərəli istifadə, fermerlər arasında ədalət meyarının qorunması məsələlərinə xüsusi önəm verilib. Məhsulun bu il hər hektar üçün 50 sentnerə çatdırılması fermerlərlə müzakirə olunub.

Pambığın tez və itkisiz yığımını təşkil etmək məqsədilə bütün maşın və mexanizmlərin, pambıqyığan kombaynların hazır vəziyyətə gətirilməsi tapşırılıb.

Fermerlər yaradılan şəraitə, kənd təsərrüfatı sahəsinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Diqqətə çatdırılıb ki, hazırda sahələrə 31 pambıqyığan kombayn, 600 nəfər işçi qüvvəsi çıxarılıb və 1804,41 ton pambıq yığılıb.





# Paytaxt sənayesində qeyri-dövlət sektorunun payı 93,3 faiz olub

**Bu ilin yanvar-avqust aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 68,1 milyard manat təşkil edib.**



Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, sənaye məhsulunun 89,6 faizi mədənçıxarma, 9 faizi emal, 1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,4 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 93,3 faizdir. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 96,5 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 3,5 faiz təşkil edib.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib. Əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında sentyabrın 1-nə 403,2 milyon manatlıq hazır məhsul ehtiyatı yaranıb. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 75,9 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

Paytaxtın ticarət dövriyyəsinin həcmi də artıb. Cari ilin yanvar-avqust aylarında paytaxtın ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz artaraq 17 milyard 506,6 milyon manat təşkil edib.

Ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,6 faiz artaraq 9 milyard 676,2 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 1,8 faiz artaraq 7 milyard 830,4 milyon manata bərabər olub. İstehlak məhsullarının 36,3 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 46,5 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 17,2 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.




# Sərhəd tanımayan məhsul

**Südün mayalanması ilə əldə edilən, yüksəkkalorili qida olan pendir müxtəlif vitaminlərlə zəngindir. Tərkibi zülal, yağ və mineral maddələrdən ibarət olan bu məhsulda ekstraktlar dəmirin həzminə və yaxşı iştahanın yaranmasına şərait yaradır. Hazırlanmasında istifadə edilən südün tərkibinə, istehsal prosesinə, bakteriyalara, kiflərə, yetişmə vaxtına və dadına görə pendirlər müxtəlif cürdür. Onlar yumşaq, bərk və müxtəlif formada ola bilər. Pendir əsasən səhər yeməyi zamanı yeyilsə də, növündən asılı olaraq ondan müxtəlif yeməklərin, salatların, hətta şirniyyatların da hazırlanmasında istifadə olunur.**

**Pendir istehsalının 7 min il əvvəldən başladığı təxmin edilir. Onun Avropada, Mərkəzi Asiya və ya Orta Şərqdə yaranması ilə bağlı mülahizələr dolaşsa da, dəqiq məkanı yoxdur.**

### *Bir-birindən fərqli pendirlər*

Dünyada bir sıra məşhur pendir növləri var. Bunların sırasında feta, mozzarella, parmezan, limburqer, brınza, çeçil, edam, motal, maskarpone, liqvanı misal göstərmək olar. Təbii ki, bu siyahını uzatmaq da mümkündür.

Ən çox adını eşitdiyimiz pendirlərdən olan feta yunan pendiridir və keçi südünün əlavə olunduğu qoyun südündən hazırlanır. Ağ pendir kimi tanınan bu növ duzludur. Yunan sözü "feta" italyan dilində "dilim" sözündən gəlir və bu da latın-



ca "offa" (dilim) sözündən yaranıb. Yunan dilinə XVII əsrdə daxil olur və XIX əsrdə bütün dünyada geniş yayılmağa başlayır. Avropa İttifaqı ölkələrində yalnız yunan pendirinə feta deyilir. "Feta" adı 2002-ci ilin oktyabrında Aİ Komissiyasının qərarı ilə Adların Mənşəyi Reyestrində qeydə alınıb. Pendirin saxlanma müddəti ən azı 3 aydır. Yağlılığı isə 30-60 faiz arasında dəyişir. Bu pendirin 3 növü var ki, onlar əsasən qoyun, inək südündən müasir üsullarla hazırlanır. Fetanı duzlu suda uzun müddət saxlamaq mümkündür.

Mozzarella İtaliya mənşəli pendir növüdür. Pendir ağ rəngdə olub, iri alma boyda kürələr şəklində hazırlanır. Əsasən müxtəlif salatların və pizzaların hazırlanmasında istifadə olunur. Mozzarella pendiri əsasən ağ rəngdə olur. Süddən və hazırlanma müddətindən asılı olaraq sarala bilər. Pendir yağlı olduğu üçün yumşaq növə aiddir. Mozzarella pizza, lazanya kimi yeməklərdə əsas inqrediyent kimi istifadə edilir.

Digər italyan pendirlərindən biri də maskarponedir. Bu pendir krem, tartarik turşusu, limon turşusu və ya limon suyu istifadə edilərək hazırlanır. Pendir ağ rənglidir və onu rahatlıqla yaymaq olur. Xüsusən məşhur Tiramusu tortunun hazırlanmasında istifadə olunur.

### *Bankların girov götürdüyü pendir*

Ümumiyyətlə, İtaliya pendirləri ilə məşhurdur. İtaliyanın milli mətbəxinin məhsulu olan, kiçikdən böyüyə hər kəsin sevdiyi pizzanın hazırlanmasında da bir çox pendir növlərindən istifadə olunur. Məşhur pendirlərdən daha biri də parmezandır. Bu, bərk pendir növüdür, ağ və ya açıq sarı rəngdə olur, eyni zamanda çox quru və azyağlıdır. Bu pendirdən müxtəlif salatların, pizzaların hazırlanmasında istifadə olunur. İnək südündən hazırlanan bu pendiri 1950-ci illərdən başlayaraq İtaliyanın bir neçə bankı pendir istehsalçılarına kredit ayıranda girov üçün götürürdülər. Pendirlər 2-3 il ərzində yetişəndən sonra bank, adətən, onları xüsusi saxlanılan yerlərə yerləşdirirdi. Pullar geri qaytarılmayan təqdirdə pendirlər satışa çıxarılırdı.

Limburqer pendiri isə əsasən Almaniya, Hollandiya və Belçikada istehsal olunur. Pendir inək südündən hazırlanır və yarıyumşaqdır. Məhsulun yağlılığı 45 faizdir və sarı rəngdədir.

Ağ pendir növlərindən hesab olunan brınza isə duzludur, bəzən açıq sarı rəngdə də olur. Hazırlanmasında inək, camış, qoyun və keçi südlərindən, bəzən isə onların qarışığından istifadə edilir. Əsasən Şərqi Avropa, Qafqaz və Balkan xalqları arasında yayılıb. Brınza pendirinin üst hissəsində digər pendirlərdəki kimi qovuqcuqlar olmur. Onu digərlərindən fərqləndirmək üçün üst hissəsini adətən bəzəyirlər. Brınza pendirinin daxilində qabarcıqlar az olur. Yağlılığı isə 40 faizdən çox olmur.

Çeçil pendiri isə saçaqlı və ya tel pendiri kimi də tanınır. Əsasən Azərbaycan, Türkiyə, Ermənistan və Gürcüstanda hazırlanır. Pendir Azərbaycanda saçaqlı, Türkiyədə isə çeçil adı ilə tanınır. Saçaqlı pendirin tərkibi yağsız inək südündən, turşumuş süddən və pendir mayasından ibarətdir. Pendiri hazırlamaq üçün yağsız inək südünə turşumuş süd əlavə edilir və 10-18 saat saxlanılır. Bu müddətdən sonra südə maya əlavə edilərək isidilir. Südün üzərində yığılan şəffaf maye götürül-



dükdən sonra alınmış dələmə 0,5-1 saat saxlanılır və üzərinə duz əlavə edilir.

Edam pendiri isə Hollandiyada istehsal olunan sarı rəngdə, yarıbərk şəkildə olur. Adı Şimali Hollandiyanın Edam şəhərinin şərəfinə adlandırılıb. Kürə formasında hazırlanan pendirin daşınması asandır, çünki korlanmır. Marketlərdə satılan edam pendirlərinin əksəriyyəti isə çox yumşaq, az duzlu və ya qozlu olur, digər pendirlərlə müqayisədə heç bir qoxuya malik deyil.

### *Çuval pendiri illərlə saxlanıla bilir*

Motal pendiri Qafqazda istehsal olunan ənənəvi pendir növüdür. Bu pendir dağ otlaqlarında, xüsusən də yazın sonlarında az miqdarda istehsal olunur. Onun adı saxlandığı qoyun və ya keçi dərisindən olan çuvaldan götürülüb. Çuval dərinin tüklü tərəfini içəri çevirməklə hazırlanır. Tükün içəridə olması pendirin qatılaşmasına və mayalanmasına kömək edir, həm də duzu özünə çəkir. Bu üsulun mənfi tərəfi yalnız tüklərin pendirdə qalmasıdır. Pendir hazırlamaq üçün hər 10 litr südə (qoyun və ya keçi südü) bir qaşıq qursaq əlavə olunur. Kəsmiklər zərdabdan ayrılır və qurumağa qoyulur. Sonra isə duzlanaraq dəri çuvala yığılır. Bir az şor əlavə olunur ki, bu da motal pendirinə müvafiq dad verir. Çuvalda deşik olmaması və içərisindən havanın



tamamilə çıxarılması və ağzının möhkəm bağlanılması vacibdir. Sonra pendir kisələri özünü tutması üçün ən azı 1 ay, ən yaxşısı isə 3-6 ay sərin yerdə saxlanılır. Saxlama zamanı çuvallar hər 4-5 gündən-bir çevrilir. Motal pendiri tez ovulan və çox duzlu olur. Hazır formada, ümumiyyətlə, təxminən 0.5-1 kiloqramlıq hissələrə bölünür. Ağımtıl və ya açıq sarı rənglidir. Düzgün hazırlandığı halda bir neçə il saxlanıla bilər.

Liqvan pendiri isə İranın Liqvan kəndində qoyun südündən hazırlanır. Turş, çuxurlu, duzlu olur. İranın ən məşhur pendiri olan bu məhsulun hazırlanması 3-4 ay çəkir. Pendir əsasən səhər və ya şam yeməyində çörəklə verilir. Ağ pendir az duzlu suda saxlanılır və orta yumşaqlıqdadır.

### *Eşşək pendiri və qurdlu pendir*

Dünyanın ən bahalı pendirinin eşşək südündən hazırlandığı deyilir. Bu südün zülallar, kalsium və omeqa 3 yağ turşuları ilə zəngin olması ürək-damar sisteminin sağlamlığının qorunub saxlanmasında mühüm rol oynayır. "Pule" adlanan pendir Serbiyada Zasavitsada bir fermada istehsal olunur. Pendirin kilosu 880 funt sterlinqdir. 12 eşşəklə biznesə başlayan fermer pendirin baha olmasının səbəbini açıqlayıb. O qeyd edib ki, 1 kiloqram pendirin alınması üçün 25 litr süd lazımdır.



Uzunqulağın inək və keçidən daha az süd verdiyini nəzərə alaraq onların gündə 3 dəfə sağıldığını da deyir. Bu pendirin hazırlanması zamanı ortaya çıxan ən böyük çətinlik südün tərkibindəki kazein zülalının çatışmazlığıdır. Bu, pendirin hazırlanmasında qatılaşdırıcı maddə sayılır. Eşşək südündə C vitamininin miqdarı adi süddəkindən 60 dəfə çoxdur, amma yağlılığı cəmi 1 faizdir. Pendirin müəyyən xəstəliklərin müalicəsində faydalı olduğu bildirilir.

Təhlükəli pendir də var. Hətta Ginnesin Rekordlar Kitabına düşüb. Adı "Casu martzu" olan bu ağartı çürümüş pendirdir. Onun daxilində canlı böcək sürfələri var. Bu, Sardiniyada istehsal edilən qoyun pendiridir. Bu pendirin hazırlanması çox maraqlıdır. Belə ki, normal pecorino pendirləri bir müddət mayalandıqdan sonra üst hissəsi kəsilərək milçəklərin pendirin üzərinə öz sürfələrini qoymasına imkan yaradılır. Prosesdə bir milçək təqribən 500-dən çox yumurtacığını pendirin üzərinə səpir. Bir müddət sonra bu yumurtalar qırılır və sürfələr öz fəaliyyətinə başlayır. Qurdların daxilindəki maye pendirin tərkibindəki yağ təbəqəsini parçalamağa başlayır. Beləliklə, pendir getdikcə yumşalır. Pendir istifadə mərhələsinə gəldiyində minlərlə qurd öz yerini alır. Sürfələr 8 mm uzunluğunda şəffaf ağ qurdlar kimi görünür. Təhlükəli olsa belə insanlar bu pendiri sürfələri ilə birlikdə yeyir, bəziləri isə yeməkdən əvvəl sürfələrini təmizləyir.

### *Sərhədsiz və qaydasız məhsul*

Süd məhsulu olan kəsmiyin tarixi qədim Romaya gedib çıxsa da, ən çox istifadə edilən ölkə Rusiya olub. Uzun illər Rusiyada kəsmik "pendir" adlandırılıb.



Hətta bərk pendir növləri yarandıqdan sonra belə kəsmik pendir hesab olunub. Kəsmikdən əsasən rusların istifadə etdiyi düşünülsə də, bu məhsul Avropa, Amerika və Asiyada da geniş yayılıb. Asiya və Amerikada qədim pendir adı ilə istifadə olunur. Romalı yazıçı və filosofların əsərlərində qeyd olunur ki, kəsmikdən eramızın I əsrində kasıblar və varlılar həm sadə formada, həm də bal, süd, hətta şərabla birlikdə istifadə edirmişlər. Çində isə soyalı kəsmikdən istifadə olunur. Onun tarixi 2 min ildən artıqdır. Bu kəsmiyi soyadan hazırlayırlar. Çində kəsmiyi gözəl dadına və ətrinə görə alırlar. Çox ucuz olduğuna görə hər təbəqədən olan insanlar ondan istifadə edə bilir. Kəsmiyi sərhədsiz və qaydasız məhsul hesab edirlər, çünki ağla gələn bütün qidalarda istifadə oluna bilir.

Qədim zamanlarda kəsmiyi suyunu süzdükdən sonra qoyduqları qabın üzərinə ərinmiş yağ tökərək saxlayıblar. Kəsmik vegetarianlar və ət məhsullarından az istifadə edənlər üçün yaxşı qida hesab olunur. Çünki onun tərkibindəki 14-29 faiz protein mədə divarlarını qıcıqlandırmır, turşuluğu artırmır və yaxşı həzm olunur. Yağ əridici təsirinə görə maddələr mübadiləsini sürətləndirir və aclıq hissini aradan qaldırır. Kəsmikdə vitaminlər çox deyil, buna baxmayaraq sinir, ürək-damar sistemi üçün lazım olan B, dəri üçün əvəzolunmaz A, D, E vitaminləri mövcuddur. Tərkibindəki fol turşusu (B9 vitamini) və kalsium sümük üçün faydalı məhsul hesab olunur. Kəsmiyi əsasən günorta yeməyin-



dən əvvəl yemək məsləhətdir. Gecə saatlarında və ya yatmamışdan əvvəl isə yağsız növündən istifadə etmək olar. Bu halda 150 qramdan çox istifadə etmək olmaz, çünki orqanizm proteini gec həzm edir. Yağlı kəsmik yağsızdan daha xeyirli hesab olunur, çünki vitamin və mikroelementlərlə zəngindir. Ən əsası, yağlı kəsmikdə olan kalsium daha yaxşı mənimsənilir. Kəsmiyi soyuducuda 3 sutkadan artıq saxlamaq məsləhət görülmür.

Süd məhsulu olan şor isə kəsmiyin bir qədər quru növüdür. O, bir növ ovxalanan pendirdir. Şoru duzsuz halda saxlamaq olar. Duzsuz şorun müalicəvi əhəmiyyəti var. Ondan qan azlığında istifadə olunur. Duzlu şor hazırlamaq üçün təzə süzülmüş şorun içərisinə ovulmuş pendir qatılır. Azərbaycanda əsasən Şamaxı və Qobustan rayonları öz şorları ilə məşhurdur. Şor süfrəyə yağla, xama ilə qarışdırılıb və ya ayrıca qəlyanaltı kimi verilir. Şora göyərti əlavə edib məzə də hazırlanır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



## Sağlıq olsun

# Kalsium mənbəyi

**Elmi araşdırmalara əsasən məlum olub ki, pendirin tərkibindəki feniletilamin adlı kimyəvi maddə qan dövranını artırır, qanda qlükoza səviyyəsini yüksəldir və beyinə müsbət siqnallar ötürür.**



Alimlər müntəzəm olaraq Rokfor pendiri (kifli pendir) yeməyin ömrü uzatdığını bildirirlər. Aparılan tədqiqatlarda sözügedən pendirin ürək sağlamlığını dəstəklədiyi də əksini tapıb və hətta mütəxəssislər bunun fransız qadınlarının orta ömrünün uzun olmasının səbəbini izah edə biləcəyi qənaətindədirlər.

Tarixi mənbələrdə göstərilib ki, Osmanlı dövründə döyüşlərdən əvvəl əsgərlər xəstələnməsin, sağlam və güclü olsun deyə kiflənmiş pendir yeyərdilər. Qanuni Süleyman qış aylarında səfərə çıxan əsgərlərinə kiflənmiş pendir verilməsini əmr etmişdi. Əsgərlərin yaralarına kiflənmiş pendirin məlhəm kimi qoyulması da qeyd olunub.

### *Xərçəngə qarşı sipər*

Dadı ilə hər kəs tərəfindən sevilən pendirin insan sağlamlığına faydalarını saymaqla bitmir. Xüsusən səhər yeməyinin əsas qidası olan bu süd məhsulunun tərkibində bol miqdarda minerallar və vitaminlər var. Pendir inkişaf çağında olan uşaqlar üçün ən çox tövsiyə olunan süd məhsullarından biridir.

Tərkibindəki linoleik turşusu və B qrupu vitaminləri sayəsində xərçəngin inkişaf riskini azaldır. Xüsusilə döş, prostat və mədə xərçənginə qarşı orqanizmi qoruyur.

Pendir bədənin kalsium ehtiyacının çoxunu ödəyir, sümükləri, o cümlədən dişləri gücləndirir. Diş minasına fayda verir və kariyes əmələ gəlməsinin qarşısını alır.

Yaddaşı gücləndirən pendir sinir sisteminə də fayda verir. Pendirdə olan amin turşusu stresi azaldır və rahat yuxunu təmin edir.

Araşdırmalara görə, yatmazdan yarım saat əvvəl pendir yemək yuxunun keyfiyyətini yaxşılaşdırır.

Zülal və vitaminlərlə zəngin bu qida ürək xəstəlikləri riskini azaldır.

### *Anemiya və yüksək təzyiqə son*

Qida Təhlükəsizliyi İnstitutundan pendirlə bağlı verilən maarifləndirici materialda bildirilir ki, bu qidanın tərkibində zülallar, yağlar, mineral maddələr, fermentlər, vitaminlər və digər qida maddələri var. Eyni zamanda içərisindəki zülallar südün tərkibindəki zülallara nisbətən daha yaxşı həzmolunma xüsusiyyətinə malikdir.

Süd və digər süd məhsulları kimi, pendir də insan orqanizmi üçün əsas kalsium mənbəyidir. Kalsium sümük toxumasının inkişafı və qorunmasında mühüm rol oynadığına görə pendiri müxtəlif yaş qrupunda olan insanlar qəbul edə bilərlər. Həmin ağartı məhsulu uşaqlarda sümüklərin normal və sağlam inkişafına müsbət təsir göstərir, yaşlılarda sümük xəstəliklərinin yaranmasının qarşısını alır.

Pendir fol turşusu ilə zəngindir. Bu turşu - B9 vitamini hamiləlik dövründə qadın orqanizmində dölün inkişafında mühüm rol oynayır. Fol turşusu qan-damar sistemi orqanlarını qorumaqla yanaşı, anemiya və yüksək təzyiqin qarşısını da alır.

Bu süd məhsulunun tərkibində olan digər əsas vitaminlərdən biri də B2 vitaminidir. Riboflavin adlanan həmin vitamin dəri, dırnaq və saça müsbət təsir göstərməklə zədələnmiş toxumaların bərpasını sürətləndirir. Digər vitaminlərdən fərqli olaraq B2 vitamini insan orqanizmində ehtiyat halında toplanmır, buna görə də onun gündəlik istehlakı zəruridir.

Pendir təbii probiotik xüsusiyyətli qida məhsuludur və tərkibində olan faydalı bakteriyalar metobolik prosesi yaxşılaşdırmaqla həzm sistemi xəstəliklərinin qarşısını alır.

### *Cəmi 40 qram pendir nələrə qadir imiş...*

Mütəxəssislər gündə bir kibrit qutusu və ya 40 qram pendir istehlakının ürək xəstəliyi riskini 14 faizə, insult riskini isə 10 faizə qədər azaltdığını bildirirlər.

Çinin Soochov Universitetinin tədqiqatçıları tərəfindən sübut edilib ki, pendir yaxşı xolesterinin səviyyəsini artırır, pis xolesterinin səviyyəsini isə azaldır. Britaniya Ürək Fondu pendirin zəngin kalsium mənbəyi olduğunu qeyd edir, lakin xəbərdarlıq edir ki, gündə 40 qram pendir tövsiyə olunan gündəlik kalori qəbulunun 7 faizini ödəyir. Buna görə də ürək xəstələrinə pendir, süd və qatıqdan kalsium alaraq kalori qəbulunu azaltmaq tövsiyə olunur. Bir sözlə, orta səviyyədə pəhriz proqramı olanlara gündə 40 qrama qədər pendir istehlakı tövsiyə edilir.



# Laktozasız pendir

**Laktozaya qarşı dözümsüzlüyü olanlar üçün ideal qida olan keçi pendiri digər pendir növləri ilə müqayisədə həm daha dadlı, həm də az kalorilidir.**

Xüsusilə bu pendir az yağlılığı ilə seçilir. Keçi pendiri ilə qidalanmaq doymuş yağ və xolesterinin miqdarını azaltmağa kömək edir. Keçi südünün tərkibində daha az laktoza var. Bu səbəbdən laktoza dözümsüzlüyü olanlar onu rahatlıqla istehlak edə bilərlər.

Həmçinin keçi pendiri digər pendirlərə nisbətən daha az natrium ehtiva edir. Həddindən artıq natrium xroniki xəstəliklərə, hətta infarkt və insult kimi ölümcül xəstəliklərə səbəb ola bilər.

Keçi pendiri inək pendirindən daha çox mineral və vitamin ehtiva edir. D, K, A vitamini ilə zəngin olan keçi pendirində tiamin, niasin və riboflavin kimi B vitaminləri də yüksəkdir. Tərkibindəki bol miqdarda kalsium sayəsində sümükləri, dişləri gücləndirməyə kömək edir.

# Çox yemək zərərdir

**Pendir faydalı qida olsa da, həddindən artıq yeyildikdə insan sağlamlığına zərər verə bilər. Xüsusilə allergiyası olan insanlar süd məhsullarından istifadə zamanı ehtiyatlı olmalıdırlar. O cümlədən allergiyası olanlar bu qidanı qəbul etmək istəyəndə həkimlə məsləhətləşməlidirlər.**

Pendir süd məhsulu olduğu üçün laktozanı həzm etmək çətin ola bilər. Həmçinin mədədə köpmə, narahatlıq kimi problemlərə yol açar. Tərkibindəki amin turşuları sayəsində bəzi insanlarda başağrısına, yüksək qan təzyiqinə səbəb ola bilər. Duzlu və bərk pendirlər qan təzyiqini artırır. Bu ağartı məhsulu kilo artımına səbəb olan qida kimi də bilinir.



# Süd zərdabı

**Pendirin suyunun (süd zərdabı) da pendirin özü qədər sağlamlığa faydalı olduğu bildirilir. Şəfa mənbəyi sayılan bu zərdab xərçəngin qarşısını alır və immunitet sistemini gücləndirir.**



Antibiotik xüsusiyyətlərə malik olan şəfalı su bədəni xarici təsirlərdən qoruyur. Qadınlarda uşaqlıq və döş xərçəngi, kişilərdə isə prostat xərçəngi riskini azaldır. Süd zərdabı ilə hazırlanan içkilər orqanizmdə kalsiumun sorulmasını artırır. Bu, osteoporozlu xəstələrin qidalanmasında çox əhəmiyyətli və təsirli maye sayılır.

Süd zərdabının ən mühüm xüsusiyyətlərindən biri də immunitet sistemini gücləndirməsidir. Tərkibindəki kalsium sayəsində skelet və oynaqlarda sümük rezorbsiyasının qarşısını alır.

İkinci tip diabet xəstələri üçün faydalı olan pendir suyu bu xəstələrdə şəkərin səviyyəsini tarazlaşdırmağa yardımçı olur.

İçərisindəki probiotik sayəsində zərdab mədə və bağırsaq xəstəlikləri olanlar üçün çox vacibdir. Mədə və bağırsaqlara sakitləşdirici təsir göstərir.

Maddələr mübadiləsini sürətləndirərək yağ yandırmasını artıran və nəticədə toxluq hissi yaradan süd zərdabından arıqlamaq istəyənlər rahatlıqla istifadə edə bilərlər.

Pendir suyu tərkibindəki hialuron turşusu sayəsində qocalmanı gecikdirir. Bu səbəbdən kosmetologiyada da istifadə olunur.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Dövlət Sərhəd Xidmətinin Akademiyasında gənc kursantların andiçmə mərasimi olub

Oktyabrın 1-də Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyasında gənc kursantların andiçmə mərasimi keçirilib.





Dövlət himninin səsləndirilməsindən sonra tədbir iştirakçıları Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla anıblar.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc kursantlar təntənəli şəkildə hərbi andı qəbul etdikdən sonra Xidmətin rəisi general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb.

Tədbirdə çıxış edən DSX Akademiyasının rəisi general-mayor Aqil Babayev mərasimin ölkəmizin şanlı qalibiyyətinin, ərazi bütövlüyümüzün bərpa edildiyi 44 günlük Vətən müharibəsinin ikinci ildönümü dövrünə təsadüf etməsi ilə əlamətdar olmasını vurğulayıb.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Ermənistan üzərində parlaq qələbə qazandığı, torpaqlarımızın işğaldan azad edildiyi, üçrəngli zəfər bayrağımızın sərhədlərimiz boyunca dalğalandırıldığı qeyd olunub. Bildirilib ki, Vətən müharibəsində DSX qarşısına Müzəffər Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarını uğurla icra edib. Sərhədçilərimizin qəhrəmanlıq və igidlik nümunələri göstərdikləri tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Vətən müharibəsində iştirak etmiş Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti arasında DSX Akademiyasının məzunu olmuş 4 zabitin Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldüyü vurğulanıb. Qeyd olunub ki, bizlərə qələbə sevincini yaşatmış şəhidlərimizin fədakarlığı yaddaşlardan heç bir zaman silinməyəcək. Onların qəhrəmanlıq mirasının gələcək nəsillər tərəfindən Vətənə sevginin və sədaqətin ən ali təzahürü olaraq daima uca tutulacağı qeyd olunub.

Çıxışda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə 2007-ci ildə yaradılmış Dövlət Sərhəd Xidmətinin Akademiyasında ölkəmizin sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün vətənpərvər, savadlı, peşəkar zabit kadrlarının yetişdirilməsini təmin edən, müasir standartlara cavab verən şəraitin, güclü elmi-tədris bazasının və yüksəkixtisaslı hərbi-pedaqoji heyətin olduğu qeyd edilib. Vətənə, dövlətə sədaqət andı içən gənc kursantların sərhədçi adını şərəflə daşıyacaqlarına, təhsildə və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminlik ifadə olunub.

Gənc kursantlar adından çıxış edən Vüsal İsmayılov Vətənə şərəflə xidmət edəcəklərinə, üçrəngli müzəffər bayrağımızın dalğalandığı bütöv Azərbaycanın hüdudlarında dövlətin maraqlarını ən yüksək səviyyədə qoruyacaqlarına söz verib.

Tədbir başa çatdıqdan sonra kursantlarla xatirə fotoşəkli çəkdirilib.

# Ötən ay dövlət sərhədini pozduqlarına görə 55 nəfər saxlanılıb

Dövlət Sərhəd Xidməti (DSX) 2022-ci ilin sentyabr ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirib.





DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, ay ərzində dövlət sərhədini pozduqlarına görə 55 nəfər saxlanılıb. Onların 34-ü Azərbaycan, 3-ü Nepal, 2-si Tacikistan, 1-i Fələstin, 1-i Pakistan, 2-si İran, 2-si Pakistan, 5-i əfqan, 1-i Suriya və 4-ü Şri-Lanka vətəndaşları olub.

Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində saxtalaşdırılmış pasport, Şengen vizaları və tarix möhürləri ilə 30 nəfər dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılıb.

Sərhədboyu rejim qaydalarını pozduqları üçün 25 nəfər və sərhəd rejim qaydalarını pozduqlarına görə isə 678 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 234 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olan 420 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 24 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 39 kiloqram 036 qram narkotik vasitə, 759 ədəd psixotrop həblər aşkarlanaraq götürülüb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri təqribən 937 min 318 manat olan qaçaqmal, o cümlədən spirtli içki və tütün məmulatları saxlanılıb.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.











## OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 4.10.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

UNHCR United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Maraq ifadə etməyə dəvət

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi (BMT QAK) məcburi köçkünlərə yönəlik üç (3) əsas sahədə layihələr hazırlamaq üçün ölkədəki potensial QHT tərəfdaşlarını müəyyən etməkdə maraqlıdır. Maraqlanan təşkilatlar aşağıdakı üç sahədən biri üçün konseptual təklif təqdim etməlidirlər:

- **Gender bərabərliyinə və bu sahədə imkanların artırılmasına dəstək.**
- **İcma səfərbərliyinə dəstək.**
- **Partlayıcı vasitələrin riskləri ilə bağlı maarifləndirmə üçün məlumatlılıq səviyyəsinin artırılmasına dəstək.**

Birdən artıq sahə ilə maraqlanan QHT-lər ayrı-ayrı konseptual təkliflər təqdim etməlidirlər. Konseptual təklifinizin tələblərə uyğunluğu və necə təqdim edəcəyinizlə bağlı təfərrüatlar "Maraq ifadə etməyə dəvətlərin" hər birində ayrıca təsvir edilmişdir.

Ətraflı məlumat üçün lütfən bu sayta daxil olun:
**https://azerbaijan.un.org/en/200617-calls-expression-interest.**

Konseptual təklif digər təsdiqedici sənədlərlə birlikdə **cümə günü, 28 oktyabr 2022-ci il tarixdə, Bakı vaxtı ilə saat 17:00-a** qədər təqdim edilməlidir.

UNHCR United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Calls for Expression of Interest

The Office of the United Nations High Commissioner for Refugees in Azerbaijan (UNHCR) is interested to identify potential NGO partners in the country to developed projects in three (3) key areas targeting internally displaced persons (IDPs). The interested organizations should submit a Concept note for one of the three areas:

- **Support to Gender equality and empowerment.**
- **Support for Community mobilization.**
- **Support for awareness raising for Explosive Ordinance Risk Education (EORE).**

NGOs interested in more than area need to submit separate Concept notes. Details on eligibility and how to submit your Concept note are described in each *Call for Expression of Interest* separately.

For details please visit **https://azerbaijan.un.org/en/200617-calls-expression-interest** website.

Concept note along with the other supporting documents should be submitted by **Friday, 28 October 2022 at 17:00 hours** Baku time.


# Paytaxtda 28, bəzi bölgələrdə isə 33 dərəcə isti olacaq

Azərbaycanda oktyabrın 2-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 19-21°, gündüz 25-29° isti, Bakıda gecə 19-21°, gündüz 26-28° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 765 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 28-33° isti, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacağı gözlənilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 28-33° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 18-23° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 25-30° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 24-29° isti, dağlarda gecə 9-14°, gündüz 18-23° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 28-33° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-19°, gündüz 25-30° isti, dağlarda gecə 13-15°, gündüz 21-25° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rüstəm Mütəllibova qardaşı

**CÜMŞÜD MÜTƏLLİBOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Dönməz Abbasova bibisi

**SƏFURƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6467
Sifariş 2729
Qiyməti 40 qəpik